**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İQTİSADİ POTENSİALI VƏ ONUN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDA GÖZLƏNİLƏN ROLU” mövzusunda

## MAGİSTR DİSSERTASİYASI

**Məmmədova Aynur Akif qızı**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"____" _______________ 2022-ci il**

# "AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İQTİSADİ POTENSİALI VƏ ONUN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDA GÖZLƏNİLƏN ROLU" mövzusunda

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060406 - Statistika

**İxtisaslaşma:** Müəssisələrin Statistikası

**Qrup:** 706

**Magistrant**

**Məmmədova Aynur Akif qızı**

**_____________ imza**

**Elmi rəhbər**

**i.ü.f.d., müəl. Abbasov Ceyhun Abbas oğlu**

**_____________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d. dos. Hümbətova Suqra İnqilab qızı**

**________________________ imza**

**Kafedra müdiri**

**i.e.d. prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**____________________imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Aynur Məmmədova Akif qızı and içirəm ki, “Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin iqtisadi potensialı və onun ölkə iqtisadiyyatının inkişafında gözlənilən rolu” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İQTİSADİ POTENSİALI VƏ ONUN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDA GÖZLƏNİLƏN ROLU

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: 30 ilə yaxın müddətdən sonra torpaqlarımızın işğaldan azad edilməsi milli iqtisadiyyatın qarşısına bir sıra mühüm vəzifələr və həlli tələb olunan problemlər qoymuşdur. Azad edilmiş ərazilərin reabilitasiyası, bu ərazilərdə iqtisadi inkişafın bərpası və ölkə iqtisadiyyatına adaptasiyası ölkəmizin iqtisadi inkişafı və əhalinin rifah halının yaxşılaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir.**

**Tədqiqatın məqsədi azad edilmiş ərazilərin mövcud iqtisadi potensialını qiymətləndirmək, iqtisadi inkişaf istiqamətlərini müəyyən etmək və mövcud problemlərin həlli üçün həll yolları təklif etməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı kəmiyyət və keyfiyyət metodlarına müraciət edilmiş, tarixi metod, müqayisəli analiz metodu, statistik təhlil, qruplaşdırma, təhlil və sintez metodlarının tətbiqinə üstünlük verilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat zamanı bizdən öncə bu mövzuda aparılan araşdırmaların nəticələrindən, elmi əsərlərdən, müasir iqtisadçıların məqalələrindən, elmi jurnallardan, habelə Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin və digər dövlət qurumlarının statistik məlumatlarından, təhlillərindən və digər internet resurslarından istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: İşğaldan azad edilmiş ərazilərin hələ də minalardan tam təmizlənməməsi burada elmi işlərin aparılmasını müəyyən mənada çətinləşdirir. Həmçinin bu ərazilərin işğal illərinə aid iqtisadi fəaliyyət göstəricilərinin əlçatan olmaması təhlil imkanlarını məhdudlaşdırmışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi yeniliyi işğaldan azad olunmuş ərazilərin iqtisadi fəaliyyət növləri üzrə mümkün inkişaf istiqamətlərini təyin etməsi və alternativ həll yolları irəli sürməsidir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Azad olunmuş ərazilərin iqtisadi potensialı ilə bağlı sahibkarlıq subyektlərinin maarifləndirilməsində təşviq məqsədilə istifadə edilə biləcəyi kimi, təhsil müəssisələrində və müvafiq tədqiqatlarda tədris vəsaiti və informasiya bazası kimi də istifadə edilə bilər.**



***Açar sözlər: Qarabağın iqtisadiyyatı, yenidənqurma və bərpa, Qarabağın iqtisadi potensialı, post-müharibə dövründə iqtisadiyyat.***

# THE ECONOMIC POTENTIAL OF AZERBAIJAN'S OCCUPIED TERRITORIES AND ITS ROLE IN THE DEVELOPMENT OF THE COUNTRY'S ECONOMY


## SUMMARY

**Relevance of the research: The liberation of our lands from occupation after about 30 years has posed a number of important tasks and problems for the national economy. Rehabilitation of liberated territories, restoration of economic development in these territories and adaptation to the country's economy are important in terms of economic development of our country and improving the welfare of the population.**

**The purpose of the study is to assess the existing economic potential of the liberated areas, identify areas for economic development and suggest solutions to existing problems.**

**Research methods used: Quantitative and qualitative methods were used during the research, historical method, comparative analysis method, statistical analysis, grouping, analysis and synthesis methods were preferred.**

**Research database: The results of research, scientific works, articles of modern economists, scientific journals, as well as statistical data, analysis and other Internet resources of the State Statistics Committee, the Ministry of Economy, the Ministry of Agriculture and other government agencies were used during the study.**

**Limitations of the study: The fact that the liberated areas are still not completely cleared of mines makes it difficult to conduct scientific work here. Also, the inaccessibility of economic activity indicators for the years of occupation of these territories limited the opportunities for analysis.**

**Scientific novelty and practical results of the research: The scientific novelty of the research is to determine the possible directions of development of the liberated territories by types of economic activities and to propose alternative solutions.**

**Areas where the results can be used: It can be used as an incentive to educate businesses about the economic potential of the liberated areas, as well as a teaching aid and database in educational institutions and relevant research.**



***Keywords: Karabakh economy, reconstruction and recovery, economic potential of Karabakh, post-war economy.***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **GOSB** | Gebze Organize Sanayi Bölgesi |
| **GZİT** | Güclü, Zəif, İmkanlar, Təhlükələr |
| **FAO** | Food and Agriculture Organization |
| **ASC** | Açıq Səhmdar Cəmiyyəti |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **QHT** | Qeyri Hökümət Təşkilatı |
| **SES** | Su Elektrik Stansiyası |

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ...........................................................................................** | **8** |
| **I FƏSİL.** | **İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN TARİXİ-COĞRAFİ VƏ İQTİSADİ XARAKTERİSTİKASI..........................** | **11** |
| 1.1. | İşğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyət növlərinin inkişafına imkan verən təbii-coğrafi xüsusiyyətlər................................................ | 11 |
| 1.2. | Qarabağın iqtisadi inkişaf tarixi və "Üçtərəfli Bəyanat"-ın iqtisadi tərəfləri.............................................................................................................. | 18 |
| **II FƏSİL.** | **İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN MÖVCUD İQTİSADİ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ STATİSTİK TƏHLİLİ.....................................................................** | **25** |
| 2.1. | İşğaldan azad olunmuş ərazilərin "Yaşıl Enerji Zonası" kimi inkişaf istiqamətlərinin araşdırılması................................................................ | 25 |
| 2.2. | Qarabağın kənd təsərrüfatı və sənaye sektorları üzrə mövcud iqtisadi imkanlarının təhlili.......................................................................... | 31 |
| 2.3. | Qarabağın turizm sektoru üzrə inkişaf potensialının təhlili.................................................................................... | 38 |
| **III FƏSİL.** | **İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN İNKİŞAF PERSPEKTİVLƏRİ.......................................................................** | **44** |
| 3.1. | Qarabağın iqtisadi yenidənqurmasında yerli və beynəlxalq təcrübədən istifadə imkanlarının təhlili................................................................... | 44 |
| 3.2. | İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində dövlətin rolu......................................................... ... | 58 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................** | **65** |
| | **İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI............................** | **68** |
| | Cədvəllərin siyahısı........................................................................ | 71 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Otuz ilə yaxındır ki, düşmən tapdağı altında olan Azərbaycan torpaqlarının iqtisadi potensialından, inkişaf imkanlarından çox danışıb, çox müzakirələr aparmışıq. 2020-ci ilin sentyabr ayında Ali Baş Komandan İlham Əliyevin əmri ilə torpaqlarımızın azad olunması istiqamətində hərbi əməliyyatlar başlandı. Müzəffər Azərbaycan ordusunun qanı və canı bahasına da olsa, 27 illik həsrətə son qoyularaq, torpaqlarımız işğaldan azad edildi. Bu tarixi qələbə milli iqtisadiyyatımızın qarşısına yeni hədəflər, yeni inkişaf imkanları və yeni məsuliyyətlər qoydu. Uzun illər qondarma rejimin istilası altında mövcud imkanları, resursları talan edilən, heç bir texniki normaya əməl olunmadan istismarı həyata keçirilən bu torpaqlarda yenidən davamlı və dayanıqlı inkişafın təmin edilməsi Azərbaycan iqtisadiyyatının yaxın gələcəkdə həyata keçirməli olduğu ən önəmli məsələlərdəndir. İşğaldan azad edilən ərazilərdə, demək olar ki, heç bir infrastrukturun yararlı halda olmaması, ən zəruri təchizatların çatışmaması və sair faktlar iqtisadiyyatın maddi və mənəvi yükünü artırır.

Yenidənqurma ilə bağlı həyata keçiriləcək proqramlarda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin digər ərazilərinə reinteqrasiyasının gözlənilməsi labüddür. Buraya xarici investorlarını cəlb etmək, sahibkarların regiona olan marağını artırmaq üçün, ilk növbədə lazımi infrastrukturlar təmin edilməli, regionda əlverişli biznes mühiti formalaşdırılmalıdır. Bütün bunlar Qarabağın mövcud iqtisadi potensialının öyrənilməsi, onun ölkə iqtisadiyyatında gözlənilən rolunun qiymətləndirilməsini olduqca aktual edir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyələri:** Torpaqlarımızın işğaldan azad edilməsilə bu ərazilərin iqtisadi potensialından səmərəli istifadə, istehsal imkanlarının qiymətləndirilməsi, ərazinin restrukturuzasiyası mövzusunda çoxlu sayda elmi-tədqiqat işlərinə başlanmışdır. Müxtəlif iqtisadi fəaliyyət növləri üzrə iqtisadi inkişaf imkanlarının öyrənilməsi, resurslardan səmərəli istifadənin təmini istiqamətində dövlət səviyyəsində elmi araşdırma və qiymətləndirilmələr həyata keçirilir.

**Tədqiqatın məqsədi və vəzifələri:** Tədqiqatın aparılmasında əsas məqsəd işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialından istifadənin milli iqtisadiyyatdakı gözlənilən nəticələrini araşdırmaqdır. Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıda sadalanan vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- İşğaldan azad olunmuş ərazilərin tarixi iqtisadi inkişaf yolunun öyrənilməsi;
- İşğaldan əvvəlki və sonrakı dövrlərdə bu ərazilərin iqtisadi potensialı ilə bağlı müqayisəli təhlillərin aparılması;
- Yenidənqurma və reinteqrasiya ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq imkanlarının araşdırılması;
- Statistik göstəricilər və məlumatlar əsasında təhlillərin aparılması və sair.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektini işğaldan azad olunmuş regionların iqtisadi potensialı, istehsal imkanları və sair təşkil edir. Predmeti isə işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin və istehsalın milli iqtisadiyyata adoptasiya və reinteqrasiyasını təmin edəcək mexanizmlərin tətbiq metodlarıdır.

**Tədqiqat metodları:** Mövzunun tədqiq edilməsinə ümumiləşdirmə, təhlil və sintez, qruplaşdırma, müqayisəli təhlil kimi keyfiyyət metodlarından, habelə statistik təhlil kimi kəmiyyət metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin yazılmasında mövzuya müvafiq dərsliklərdən, elmi ədəbiyyatlardan, məqalələrdən, daha öncə bu mövzuda aparılan tədqiqat işlərindən, statistik və iqtisadi məlumatlardan, müvafiq dövlət qurumlarının rəsmi internet resurslarından, habelə qanunlar, qərarlar, fərmanlar və sərəncamlardan istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat mövzusunun yeni olması, işğaldan azad edilmiş ərazilərin iqtisadi göstəricilərilə bağlı dolğun məlumatların olmaması tədqiqat imkanlarını məhdudlaşdırır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın aparılması ilə işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi inkişaf potensialı araşdırılmış, iqtisadi fəaliyyət növləri üzrə inkişaf istiqamətləri müəyyən edilmiş və sistemləşdirilmişdir.

**Nəticələrin praktik əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın aparılması ilə əldə olunan nəticələr işğaldan azad edilmiş ərazilərin iqtisadi vəziyyəti ilə bağlı ümumi təsəvvür yaratmaqla yanaşı, mövcud problemləri, inkişaf imkanlarını, gözlənilən təhlükələri görməyə imkan verir.

İqtisadi vəziyyətin qiymətləndirilməsinin əhəmiyyətliliyi problemlərin həll yolları ilə bağlı təklif və tövsiyyələrin verilməsinə şərait yaratmasına bağlıdır. Tədqiqatın nəticələrindən müvafiq mövzu üzrə elmi araşdırmalarda, azad olunmuş ərazilərin iqtisadi potensialının qiymətləndiriləsində və müvafiq təhlillərin aparılmasında vəsait kimi istifadə edilə bilər.

# I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN TARİXİ-COĞRAFİ VƏ İQTİSADİ XARAKTERİSTİKASI

## 1.1. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyət növlərinin inkişafına imkan verən təbii-coğrafi xüsusiyyətlər

Türk iqtisadçılarının hesablamalarına görə Qarabağın restrukturuzasiyası üçün tələb olunan məbləğ ən az 82 milyard dollar təşkil edəcəkdir. İqtisadi inkişafdan, habelə davamlı və dayanıqlı iqtisadi inkişafdan danışmaq üçün ilk öncə regionun infrastrukturu bərpa edilməli və yaşayış üçün yararlı hala gətirilməlidir. Aparılan səmərəli yenidənqurma-bərpa işləri və müvafiq proqramlar hesabına buranın iqtisadi potensialından istifadə imkanlarının genişlənəcəyi danılmazdır.

Qarabağın iqtisadi potensialı bir sıra iqtisadi fəaliyyət növləri üzrə inkişafa imkan verir. Təbii ki, sağlamlıq turizmi, dağ turizmi, istirahət turizmi və sair kimi turizm sektorunu, sənaye və tikinti sahələrini, kənd təsərrüfatını, dağ-mədən sənayesini inkişaf imkanları böyük olan iqtisadi fəaliyyət sahələri sırasında qeyd etmək olar.

İşğaldan azad edilən rayonlarımızın təbii-landşaftına nəzər saldıqda, buranın zəngin heyvan və bitki örtüyünə malik olduğunu görürük. Ümumiyyətlə, Kiçik Qafqaz regionu meşə ehtiyyatları ilə zəngindir. Burada nadir heyvan və bitki növləri ilə yanaşı tarixi abidələr, tikililər də var. Ərazinin meşə örtüyünün sahəsi təxminən 247 min hektara yaxındır ki, bunun da 13197 hektarlıq ərazisi digər iqtisadi fəaliyyət növləri üçün də yararlı hesab edilən bitki və ağac növlərinə sahibdir. İşğaldan əvvəlki dövrdə regionun təbii landşaftının və coğrafi spesifikasının qorunması məqsədilə qoruqlar və yasaqlıqlar da yaradılmışdır. Zəngilan rayonu ərazisindən keçən Bəsitçayın iki sahili boyu yaradılan "Bəsitçay" qoruğu bunlardan biridir. Qoruqda yüz illərlə yaşı olan, Qırmızı Kitaba salınmış və yalnız bu regiona xas çinarlar qorunurdu. 29 oktyabr 2020-ci ildə Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş ərazilərdə idarəetmənin təşkili" haqqında verdiyi fərmanla Kiçik Qafqazın cənub-qərbində, xüsusilə, Zəngilan, Cəbrayıl, Qubadlı,

Xocavənd və Füzuli rauonları ərazisində monitorinqlərə başlanmışdır. Monitorinqlərin keçirilməsində məqsəd ərazinin ilkin qiymətləndirilməsini aparmaq, təbii sərvətlərdən səmərəli istifadə olunması və onların qorunması məqsədilə müvafiq araşdırmaları həyata keçirməkdir. Arazboyu rayonlarda aparılan müşahidələr nəticəsində məlum olmuşdur ki, yaşıllıq massivləri və meşələrdə qəsdən törədilən yanğınlar nəticəsində münbit torpaq qatı, bitki örtüyü və digər canlılar məv edilib. Yaşı 500 il, 600 il, 1500 il olduğu ehtimal edilən Şərq çinarlarının təxminən iki-üç il əvvəl kəsildiyi müəyyən edilmişdir. Bütün bunlarla yanaşı ilkin qiymətləndirmə nəticəsində ərazidə mövcud olan qəbiristanlıqların, tarixi abidələrin, yaşayış binaları və evlərin də tamamilə dağıdıldığı təsdiqlənmişdir.

Ölkəmiz Sovet Rusiyasının tərkibində olduğu zaman Dağlıq və Yuxarı Qarabağ rayonları digər inzibati rayonlarla sıx iqtisadi əlaqələrə malik idilər. Belə ki, burada fəaliyyət göstərən müəssisələrin əksəriyyəti Bakının iri sənaye müəssisələrinin filialı kimi çıxış edir və xammalı, materiallar və yanacağı məhz buradan alırdılar. Digər tərəfdən güclü nəqliyyat-kommunikasiya əlaqələri regionu ölkənin digər hissələri ilə bağlayırdı. Avtomobil və dəmir yolları ilə yanaşı Qarabağın mərkəzi hesab edilən Xankəndi rayonunu Bakı ilə hava və dəmir yolları (392 km) da birləşdirirdi. Erməni vandalizmi bu infrastrukturun tamamilə məhvinə səbəb olmuşdur. O səbəbdən iqtisadi yenidənqurmanın ilkin mərhələsi işğaldan azad edilmiş ərazilərə yolların çəkilməsini əhatə edir. Post-müharibənin birinci ilində Bakı-Şuşa avtomobil yolunun və Füzuli Hava Limanının tez istifadəyə verilməsi bunu sübut edir (https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193).

Qloballaşan dünyamızda şirin, içməli su ilə təminat problemi günü-gündən aktuallaşmaqdadır. Belə ki bəzi iqtisadçıların hesab edirlər ki, yaxın gələcəkdə şirin suyla təminat ən ciddi qlobal problemlərdən birinə çevriləcək və yanacaqla təminatdan daha mühüm əhəmiyyət kəsb edəcəkdir. Dünya xəritəsinə nəzər saldıqda bəzi regionlarda bu məsələnin artıq problem halını aldığını aydın müşahidə etmək olar. Təəssüf ki, ölkəmiz də içməli su ehtiyyatları ilə zəif təmin

olunmuş ölkələr sırasındadır. Həmçinin əhalinin içməli suya olan tələbatını ödəmək üçün istifadə etdiyi çayların mənbəyi ölkədən kənardadır. Yəni bu çayların su ehtiyyatı başqa ölkələrin ərazisində formalaşır. Şirin su ilə təminat məsələlərinin yaxşılaşdırılması və sulardan səmərəli istifadənin təmin edilməsi məqsədilə dövlət səviyyəsində bir sıra işlər görülməkdədir. Bu məsələlərlə məşğul olan Dövlət Komissiyası 15 aprel 2020-ci il tarixində Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmışdır.

Bu konteksdən yanaşıldıqda, işğaldan azad edilmiş ərazilərin zəngin su ehtiyyatları ölkəmizin su ilə təminat məsələsində mühüm əhəmiyyətə malikdir.
İşğal dövründə Qarabağda iyirmi dörd su anbarı fəaliyyət göstərirdi ki, bunlardan üçü qəzalı vəziyyətdə idi. Meliorasiyaya yararlı anbarların sayı iyirmi iki, balıqçılıq təyinatlı anbarların sayı isə yeddi idi. Regionun ən böyük su anbarı Madagiz, yəni Suqovuşan su anbarı hesab edilirdi. Bu anbar nəinki Qarabağı, həmçinin bütün Ermənistan ərazisini su ilə təmin edirdi. İşğaldan azad edildikdən sonrakı dövrdə aparılan bərpa-təmir işləri hesabına artıq Suqovuşan su anbarı Qarabağ regionun torpaqlarının suvarılmasında istifadə edilir. Anbar doxsan min hektar sahəyə qədər ərazini suvarma suyu ilə təmin etmə gücündədir. “Meliorasiya və Su Təsərrüfatı” ASC-dən verilən məlumatlara əsasən, anbarın ehtiyyatlarından Bərdə, Tərtər, Goranboy və Yevlax rayonlarında otuz min hektardan çox ərazinin suvarılmasında istifadə edilir. Ümumi həcmi 5,86 milyon $m^3$ olan Suqovuşan su anbarının 5 milyon $m^3$ həcmi yararlı hesab edilir. Post-müharibə dövründə anbarda aparılan bərpa-təmir və yenidənqurma işləri hesabına 2021-ci ilin ilk səkkiz ayı ərzində 75 km uzunluqda beton və torpaq məcralı kanallarda təmizləmə işləri aparılmışdır (https://science.gov.az/az/news/open/17113).

Zəngilan və Cəbrayıl rayonları ərazisində yerləşən “Xudafərin” su anbarı da zəngin su ehtiyyatı ilə seçilir. Anbar hesabına 70-75 min hektar ərazinin suvarılması mümkündür. Bəzi mənbələrdə anbarın həcminin 1.5 milyard $m^3$ olduğu qeyd edilir. Onu da qeyd edək ki, hesablamalara görə Qarabağ regionunda su təchizatı bir gün üçün 1,968 min $m^3$ olan on bir şirin sulu yeraltı su mənbəyi də mövcuddur (https://science.gov.az/az/news/open/17113).

Qarabağın iqtisadi yenidənqurmasında regionun su ehtiyyatlarından səmərəli istifadə edilməsi, bu istiqamətdə mövcud potensialın düzgün qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Regionda su elektrik stansiyalarının tikilməsində, avtomat hidroloji stansiyaların qurulmasında Çin şirkətləri xüsusilə maraqlıdır. Bu da milli iqtisadiyyatımızın investisiya cəlbediciliyinin artdığını sübut edir.

İşğal olunan ərazilər müxtəlif kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi üçün potensial imkanlara malikdir. Dağlıq ərazilər iribuynuzlu mal-qara, düzən ərazilər isə əkinçilik və xırda buynuzlu heyvandarlıq üçün yararlıdır. Həmçinin ölkəmizin ən zəngin ot örtüyünə malik alp-subalp çəmənlikləri də Qarabağ iqtisadi rayonu ərazisində geniş yayılmışdır. Bu da, öz növbəsində, yaylaq-qışlaq heyvandarlığının inkişaf edirilməsi üçün əlverişlidir. Alp və subalp çəmənlikləri regionda arıçılığın inkişafına da imkan verir. Hələ işğaldan öncəki dövrdə bu zonada istehsal olunan bal və digər arıçılıq məmulatları nəinki ölkəmizdə, bütün Kiçik Qafqazda məşhur idi (Xüsusilə, Kəlbəcər və Laçın balı). Onu da qeyd edək ki, regionda arıçılıq fəaliyyətinə artıq başlanmışdır və 2021-ci ildə keçirilən bal festivalında Kəlbəcər və Laçın rayonundan gətirilən arıçılıq məhsulları da istehlakçılara təqdim edilmişdir. Bu sahə ilə məşğul olan müvafiq dövlət orqanı Azərbaycan Arıçılıq Assosiasiyasından bildirilir ki, işğaldan azad edilən ərazilərdə arıçılığın inkişaf etdirilməsi ölkə üzrə bu məhsulların istehsalını 100%-ə qədər artırmağa imkan verəcəkdir. Bunun üçün qurum tərəfindən “Arıçılığın İnkişafına dair” proqram işlənib hazırlanmışdır. Gələcəkdə bu məhsulların dünya bazarına çıxarılması üçün müvafiq sertifikasiyadan keçirilməsi nəzərdə tutulur. Həmçinin bu məhsulların brendləşməsi, habelə orqanik kənd təsərrüfatı malları sırasında öz yerini alması üçün müvafiq işlər görülə bilər. Beləliklə, torpaqlarımızın işğaldan azad edilməsi ilə istehsal sektorlarında yaranan canlanma bir sıra məhsulların idxalının əvəzləşdirilməsinə, habelə yerli istehsalın güclənməsinə səbəb olacaqdır.

İqtisadi zonaların əvvəlki bölgüsünə uyğun desək, Dağlıq və Yuxarı Qarabağ adlandırılan ərazilərdə faydalı qazıntıların çox olmasına baxmayaraq 27 il kimi qısa müddət ərzində heç bir texnoloji normalara əməl edilmədən aparılan istismar

işləri, texnogen  əməliyyatlar, hərbi işlər burada mövcud filiz və qeyri-fliz faydalı qazıntı ehtiyyatlarına ciddi ziyan vurmuşdur.

Bildiyimiz kimi, Böyük Qafqaz zonasından fərqli olaraq Kiçik Qafqaz çökmə deyil, vulkanik süxurlarla örtülmüşdür. Üzvi çöküntülərin əksinə tektonik və vulkanik mənşəli çöküntülərdə filiz faydalı qazıntıların həcmi daha çox olur. Aparılan araşdırmalar göstərir ki, işğal dövründə regionun faydalı qazıntılarının hasilatı müvafiq texniki normalara əməl olunmadan həyata keçirilmişdir. Bu isə qanunsuz istismar olmaqla yanaşı, eyni zamanda resurslardan səmərəsiz istifadə etməklə onların yararlılıq göstəricilərinin aşağı salınması deməkdir. Qarabağın sənaye əhəmiyyətli faydalı qazıntılarının yenidənqiymətləndirilməsi zamanı ərazinin metal və qeyri-metal faydalı qazıntılarla zəngin olması təstiqlənmişdir. Burada zinət daşları, kükürd kolçedanı, soda xammalı ilə yanaşı bir sıra tikinti xammalı ehtiyyatı da mövcuddur. Sement xammalı, inşaat və üzlük daşları, inşaat kərpici xammalı, mişar daşları, mineral boyalar və digər tikinti-inşaata yararlı qazıntıların ehtiyyatı 10 milyon $m^3$-lə ölçülür. Bu xammal üzrə yataqlardan Əsgəranda mergel yataqları, Şahbulaqda əhəngdaşı yataqları, Yemişcan, Gülablı və Ağçayda mərmərləşmiş daş yataqları, Çiləbürtdə gəc qazıntı yataqları, Çıldıranda tuf yataqları işğal dövründə istismar edilmişdir. Hesab edilir ki, hasil edilən məhsullar, əsasən, heç bir emal prosedurasına cəlb edilmədən, xammal formasında xaricə daşınmışdır. Eyni hal qızıl, civə, mis və sair kimi əlvan metallar üçün də xarakterikdir. Təkcə Kəlbəcər rayonunun ərazisində onlarla qızıl, gümüş, xromit, mis, volfram, qurğuşun, molibden, tuf yataqları və tikinti daşlarına aid filiz və qeyri-filiz faydalı qazıntı yataqları mövcuddur. Ərazisinin 70%-i Kəlbəcər rayonu ərazisində yerləşən Zod qızıl yatağı isə hələ qədim dövrlərdən "Şəhrizər" yəni qızıl şəhəri adlandırılmışdır. İşğal zamanı 2007-2020-ci illərdə Zod qızıl yatağının istismarını "Geopromining" şirkəti həyata keçirmişdir.  Bütün bunlar torpaqlarımızda qanunsuz aparılan istirmar fəaliyyətinin, habelə talançılıqla hasil edilən qızıl ehtiyyatlarının dünya bazarına çıxarıldığını sübut edir (https://science.gov.az/az/news/open/17113).

İşğaldan azad edilmiş ərazilərdə 163 növ qazıntı yatağının olması təstiqlənmişdir. Bununla yanaşı, yeddi civə, beş qızıl, bir qurğuşun və sink, iki mis, altı gəc, bir daş kömür, dörd vermikulit, bir soda üçün xammal, iyirmi bir üzlük daşı, on mişar daşı, doqquz gil, on iki bəzək daşları və əlvan daşlar (yəşəm, mərmərləşmiş oniks, obsidian və sair), iyirmi sement xammalı, on əhəng xammalı, səkkiz müxtəlif tikinti daşları, bir perlit, dörd tikinti qumu, səkkiz vulkan külü-pemza, on bir mineral su və on altı yeraltı şirin su yataqları təyin edilmişdir. Mehmana filiz rayonunda Tərtərçayın sağ sahili boyunda yerləşən Qızılbulaq yatağı isə qızıl-mis-kolçedan sahəsi hesab edilir. Bura regiondakı ən perspektivli ərazilərdən biri sayılır. Kolçedan-mis formasiyasının özündə qızıl saxlaması bazalt maqmatizmi ilə əlaqədar ortaya çıxmışdır. Bu yataqlarda sərbəst qızıl yataqlarına da rast gəlinməkdədir. Qızılbulaq yatağında filizlərin əsas hissəsi damar materiallarından təşkil olunmudur. Yəni onların tərkibi karbonat və kvarslarla zəngindir (https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193).

Qarabağın filiz və qeyri-filiz faydalı qazıntı ehtiyyatları sənaye üçün yararlı hesab edilən hissəsinin həcmi təxminən 37 min ton qurğuşun, 132 ton qızıl, 18.432 min $m^3$ üzlük daşı, 1.526 min ton gəc, 1898 ton civə, 23.243 min $m^3$ gil, 190 milyon $m^3$ mişar daşı və sairdir. Sənaye istehsalına yararlı hesab edilən civə ehtiyyatlarının Kiçik Qafqaz regionundakı əsas yatağı Kəlbəcər rayonu ərazisindəki Ağyataq və Şorbulaq yataqlarıdır. İstehsal əhəmiyyətli mərmər ehtiyyatları Harovda, iri tikinti daşları isə əsasən Xankəndi rayonu ərazisində yayılmışdır.

Təbii ki, keçən 27 il ərzində bu yataqlar deformasiyaya məruz qalmışdır, habelə həmin müddətdə yeni qiymətləndirmə metodları da formalaşmışdır. Bu səbəbdən post-müharibə dövründə regionun sənaye potensialının düzgün qiymətləndirilməsi üçün bütün növ faydalı qazıntı yataqlarının yenidənqiymətləndirilməsinə, bu yataqlarının hər birinin yenidən işlənməsinə, kompleks araşdırma-tədqiqat işlərinin aparılmasına ehtiyac vardır.

İşğaldan azad edilən rayonlarımızda turizm potensialının yüksək olması hamımıza məlumdur. Buranın əlverişli coğrafi mövqeyi, təbiəti, müxtəlif formalarda təbii sturukturları, landşaftı, təmiz havası, yaşıllıq əraziləri, mineral ehtiyyatları və sair turizm sektorunun bir sıra fəaliyyət növləri üzrə inkişaf etdirilməsinə imkan verir. Hazırda dünya miqyasında tədricən daha sürətli inkişaf edən sağlamlıq turizminin Qarabağda yaradılması üçün kifayət qədər müalicəvi əhəmiyyətli termal və mineral sular mövcuddur. Xüsusilə, Kəlbəcər, Şuşa, Laçın rayonu ərazisində çoxlu sayda müalicəvi əhəmiyyətli sular vardır. İlk öncə sözügedən ərazilərdə lazımi infrasturuktur formalaşdırılmalı, regionun turizm cəlbediciliyi artırılmalıdır. Sağlamlıq turizmi üzrə yüksək inkişaf tempi ilə seçilən ölkələrin təcrübəsi araşdırılmalı və beynəlxalq təcrübənin ölkəmizdə tətbiq imkanları qiymətləndirilməlidir. Qeyd edək ki, Kəlbəcər rayonunda təbii şəkildə çıxan "İstisu" mineral suları kimyəvi və fiziki tərkibinə görə yalnız Çexiyanın məşhur "Karlovı-Varı" mineral suyundan geri qalır. Müalicəvi əhəmiyyətinə görə bu sular demək olar ki eyni dərəcədə effektivdir. Belə olan halda termal və mineral sulardan həm regionda sağlamlıq turizminin qurulması məqsədilə istifadə edilə bilər. Həm də suların qablaşdırılması və dünya bazarına çıxarılması hesabına da gəlirlilik təmin edilə bilər. Həmçinin Kəlbəcərin relyefinin müxtəlifliyi burada çeşidli turizm xidmətlərinin yaradılmasına, kanatların inşasına imkan verəcəkdir.

Regionun ərazisinin bir hissəsinin dəniz səviyyəsindən yüksək olması və şərqdən Kiçik Qafqaz dağları ilə əhatələnməsi burada dağ turizminin inkişafı üçün əlverişli şəraitin olması deməkdir. Eyni zamanda bu ərazilər qış turizminin inkişafı üçün də yararlı hesab edilir.

İşğaldan azad edilmiş ərazilərdə ekstremal turizm, yaşıl turizm, ov turizmi, ekoturizm, aqroturizm kimi müxtəlif isiqamətlərdə turizm növlərinin inkişaf etdirilməsi üçün əlverişli şərait var.

Qarabağın turizm potensialından səmərəli istifadəni təmin etmək məqsədilə müvafiq dövlət proqramları və layihələr işlənib hazırlanmaqdadır. Ərazinin nəqliyyat problemlərinin həll edilməsi və tarixi abidələrinin bərpası, müvafiq turizm obyektlərinin qurulması kimi işlərlə yanaşı, dünya miqyasında Qarabağın

turizm potensialının reklamı, turizm imkanlarının düzgün təbliği və sair kimi marketinq yönümlü məsələlərin həlli də olduqca mühümdür.

## 1.2. Qarabağın iqtisadi inkişaf tarixi və "Üçtərəfli Bəyanat"-ın iqtisadi tərəfləri

Qarabağın zəngin təbii sərvətləri, tarixi abidələri, yerləşdiyi əlverişli coğrafi mövqe, əsas nəqliyyat və ticarət yollarının üzərində yerləşməsi hələ qədim zamanlarda burada məskunlaşma, kən və şəhərsalma, tikinti fəaiyyətləri, müxtəlif növ sənətkarlıq sahələri, kənd təsərrüfatı fəaliyyət növləri və sairin inkişafına imkan vermişdir. Ən qədim zamanlardan insanlar həyat fəaliyyətinin davam etdirilməsi üçün ən əlverişli su və torpaq şəraitinin olduğu ərazilərdə məskunlaşmağa başlamışlar. Təsadüfi deyil ki, Qarabağ ərazisində, Füzuli rayonunda yerləşən Azıx mağarası dünya miqyasında ən qədim insan məskənlərindən biri sayılır. Su mənbələrinə əlçatanlığın yüksək səviyyədə olması, habelə torpaqların əkin üçün yararlı olması əkinçilik vərdişlərinin formalaşmasına səbəb olmuşdur. Çoxlu növdə ot və ot bitkilərilə zəngin alp və subalp çəmənlikləri yaylaq-qışlaq maldarlığının inkişafına şərait yaratmışdır. Tarixən Qarabağda əhali ticarət, sənətkarlıq, xalçaçılıq, ipəkçilik, arıçılıq və sair kənd təsərrüfatı növləri ilə məşğul olmuşlar. İşğaldan azad edilən torpaqların xarakterik fəaliyyət sahələri sırasında tütünçülük, üzümçülük, boyaqçılıq, meyvə-tərəvəz və bostançılıq (əsasən, dağətəyi rayonlarda), baramaçılıq, pambıqçılıq və sair qeyd edilə bilər. Xanlıqlar dövrü və Azərbaycanın Çar Rusiyasının tərkibində olduğu dövrlərdə də bu iqtisadi fəaliyyət növləri əhalinin əsas məşğuliyyətini təşkil edirdi. Sovet Rusiyasınnı əsarəti altında olduğumuz dövrlərdə ölkə iqtisadiyyatında müəyyən mənada inkişaf nəzərə çarpırdı. Müxtəlif təyinatlı fabriklər, zavodlar, kiçik və orta müəssisələr yaradılmağa başlanmışdı. Həmin dövrdə Qarabağda fəaliyyət göstərən iqtisadi fəaliyyət subyektləri üçün xammal bazası, əsasən, Bakı şəhəri hesabına təmin edilirdi. Əslində bu da SSRİ rəhbərliyinin məkrli planlarından biri idi. Təkcə Qarabağda deyil, ittifaqa daxil olan bütün ölkələr arasında iqtisadi fəaliyyət

subyektləri üçün tələb olunan mal-material, xammal, maşın və avadanlıqlar və sair digər respublikalar və ya şəhərlər hesabına təmin edilirdi. Bundan məqsəd respublikaların özünütəminetmə imkanlarını məhdudlaşdırmaq idi. Məhz Qarabağda da istehsal fəaliyyəti bu siyasət əsasında qurulmuşdur.

Dağlıq və Yuxarı Qarabağ regionunun filiz və qeyri-filiz faydalı qazıntılarından istehsal məqsədli istifadə hələ XIX əsrin sonları - XX əsrin əvvəllərindən başlamışdır. Regionun ərazisindən çıxarılan mişar daşı, mergel, gil, tikinti kərpici üçün xammal və digər inşaat xammalları ölkənin digər rayonlarında fəaliyyət göstərən müvafiq müəssisələrə daşınırdı. Ötən əsrin ortalarınadək infrastruktur da zəif təmin olunmuşdur. Dağlıq Qarabağın dəniz səviyyəsindən olduqca hündürdə yerləşən yaşayış zonalarını mərkəzi şəhərlərlə birləşdirən nəqliyyat yolları yox səviyyəsində idi. Qış aylarında isə onlar arasında nəqliyyat və kommunikasiya əlaqələri tamamilə kəsilirdi.

Kiçik Qafqaz regionuna aid edilən Dağlıq və Yuxarı Qarabağın istər səfalı havasına, istər geniş yaşıllıq və meşə zonalarına, çəmənliklərinə görə olsun, istərsə də mineral və termal sular kimi şəfalı su qaynaqlarına görə turizm üçün yüksək potensiallı ərazi hesab edilir. Ancaq işğaldan əvvəlki dövrdə də bu istiqamətdə mövcud potensialdan tam və səmərəli istifadə edilməmişdir. Bir sıra səbəblər vardır ki, Qarabağ təbiətini dünya miqyasında “turizm incisi”-nə çevrilməkdən geri salırdı. Bu səbəblərdən ən önəmlisi ölkənin müstəqil olmaması və Sovet Rusiyasından asılı olması idi. Qərbdə istehsal günü-gündən inkişaf etdiyi, beynəlxaq iqtisadi əlaqələrin genişləndiyi və sahibkarlıq fəaliyyətinin milli iqtisadiyyat üçün əhəmiyyətinin tədricən artdığı dövrlərdə Azərbaycan sosializm ideyaları əsasında idarə edilən inzibati-amirlik iqtisadi sisteminə tabe idi. Özəl sektorun və xüsusi mülkiyyətin olmaması, qapalı iqtisadi sistemin hökm sürməsi bir sıra iqtisadi fəaliyyət növlərini inkişafdan geri qoyurdu. Yalnız dövlət planlaması və idarəsi çərçivəsində görülən işlər o dövr üçün müasir sayılan iqtisadi münasibətlərlə ayaqlaşa bilmirdi. Onu da qeyd etmək lazımdır ki, Sovet Rusiyası dövründə ölkəmizin digər ərazilərində olduğu kimi Qarabağda da bir sıra infrastrukturların qurulmasına nail olunmuşdu. Rabitə kommunikasiya xətlərinin

çəkilməsi, regionun bir sıra ərazilərinin elektriklə təminatı, nəqliyyat yollarının çəkilməsi və sair buna misal ola bilər.

Kəlbəcərdə "İstisu", "Turşsu", Şuşada "Turşsu" və sair mineral bulaqlar ətrafında yaradılmış sağlamlıq kompleksləri, kurort və sanatoriyalar sağlamlıq turizminə götə ittifaq respublikaları arasında müəyyən mənada şöhrət də qazanmışdı. Post-müharibə dövründə bu ehtiyyatların müasir metodlarla yenidən qiymətləndirilməsi onların iqtisadi potensialından daha səmərəli idarəetməyə imkan verəcəkdir.

Qarabağın meşə və çəmənlikləri biomüxtəlifliyin zənginliyi ilə seçilir. Hələ qədim zamanlardan buradakı bitkilərin dərman vasitəsi kimi istifadə məqsədilə yığılması həyata keçirilmişdir. Müasir dövrümüzdə orqanik kənd təsərrüfatı istehsalının əhəmiyyətinin artdığını nəzərə alaraq, regionun meyvə-giləmeyvə, müxtəlif çay bitkilərindən və sair bu məqsədlə istifadə etmək məqsədəuyğun olar. Həmin məshulların qablaşdırılması və ixractəyinatlı istehsala nail olunması ölkəmizin ixrac malları üzrə diversifikasiyasını artırmaqla, idxalı da müəyyən mənada məhdudlaşdıracaqdır.

Çoxlu sayda gursulu çayların və göllərin olması regionun elektrik enerjisinə və suvarma suyuna olan ehtiyacının daxili potensial hesabına ödənilməsi imkan verir. İşğal dövründə Madagiz adlandırılan Suqovuşan və Tərtərçay üzərində tikilmiş Sərsəng su anbarları enerji təyinatlı anbarlar kimi fəaliyyət göstərmişdir. Burada Madagiz-1 və Madagiz-2 su anbarlarının gücü müvafiq olaraq 4.8 mqvt- 3 mqvt idi. Sərsəng su anbarı enerji təminatı ilə yanaşı suvarma məqsədləri üçün də istifadə edilirdi. Anbarın istehsal gücü 50 mqvt təşkil edirdi. Qeyd etmək yerinə düşərdi ki, işğalın ilk iyirmi illik dövründə bu kimi infrastrukturlar üzərində heç bir ciddi yenidənqurma və təmir-bərpa işləri görülməmişdir. Madagiz su anbarının və elektrik stansiyalarının inşası isə 2012-ci ilə təsadüf edir. Bu anbarda suvarma kilidləri də quraşdırılmışdı. Meliorasiya məqsədləri üçün su ehtiyyatlarına ehtiyac yarandığı zaman kilidlrin açılması ilə saniyədə 30 kubmetr su anbardan buraxıla bilirdi. SES-lərin səhmlərinin yarı faizi qondarma qurumun, qalan yarısı isə sahibkarlıq müəssisələrinin əlində cəmlənmişdi. Azərbaycan SSRİ və Azərbaycan

Respublikası dövründə inşa edilən və ya inşası nəzərdə tutulan obyektlərin, strukturların texniki layihələr isə itirilmiş və yandırılmış, yararlılılığı qorunub saxlanmamışdır. İşğal dövrlərində Varanda çayı üzərində inşa edilən üç su anbarının isə SSRİ dövründən fəaliyyət göstərdiyi ehtimal edilir. Bundan sonrakı tarixə nəzər saldıqda 2015-ci ildə sözügedən su anbarlarının qanunsuz yenidənqurma işlərinə cəlb edildiyinin şahidi oluruq.

Varanda su anbarları Füzuli rayonu ərazisində yerləşməklə həmçinin Xocavənd rayonu ərazisində əkin sahələrinin suvarılması məqsədilə də istifadə edilirdi (http://supremecourt.gov.az/static/view/173).

İşğal olunmuş ərazilərdən müharibə yolu ilə çıxarılan erməni xalqının evləri, obyektləri, yaşayış yerlərini, hətta özündə qiymətli biomüxtəlifliyi saxlayan meşəlikləri yandırdığı kimi, bu kimi istehsal təyinatlı obyektlərə də mümkün qədər ziyan vuraraq təhvil verdilər. Müharibənin sonlanmasından sonra dərhal Suqovuşan su anbarının tikintisinə başlanması, burada ciddi təmir-bərpa işlərinin görülməsi də buna sübutdur.

İşğal dövründə müasir texniki üsullardan və avadanlıqlardan istifadə etmədən, texniki normalar gözlənilmədən qızıl və digər əlvan metalların da hasil edildiyi müəyyən edilmişdir. Bu məhsulların emal və istehsal proseduralarına cəlb edilmədən xarici şirkətlərin əməkdaşlığı ilə dünya bazarına daşındığı ehtimal edilir.

İllərdir ki, "ölkəmizin güclü ordusu, hər cür hərbi texnikası var və kifayət edər ki qısa müddət ərzində işğal altında olan torpaqlarımızı azad etsin" şüarları səsləndirirdik. Ancaq hər bir hadisənin baş verməsi üçün tarixi və iqtisadi cəhətdən əlverişli şəraitin yetişməsi mühümdür. Belə bir şəraitin yetişməsi ilə yanaşı həmin fürsəti düzgün qiymətləndirib səmərəli istifadə etmək də olduqca əhəmiyyətli məsələdir. Əlbəttə, ötən əsrin doxsanıncı illərində milli iqtisadiyyatımızın vəziyyəti ürəkaçan deyildi. Yenicə bazar iqtisadiyyatına keçid etmiş iqtisadiyyatımızda yerli istehsal, daxili tələbatın ödənilməsi, iqtisadi fəaliyyət strukturlarının mövcudluğu bərbad vəziyyətdə idi. İlk öncə , iqtisadi azadlığa nail olunmalı, ölkə əhalisinin ərzaq təhlükəsizliyi təmin edilməli və dünya

iqtisadiyyatının müasir tələblərinə cavab verən iqtisadi sistem üzrə milli iqtisadiyyat formalaşdırılmalı idi. Bu şərtlər ödənildikdən, habelə beynəlxalq səviyyədə bir sıra siyasi və iqtisadi uğurlara nail olunduqdan sonra bizim imkanlarımız və beynəlxalq miqyasda siyasi əməkdaşlıqlarımız imkan verdi ki otuz ilə yaxın müddətdə düşmən tapdağı altında olan torpaqlarımızın azad edilməsinə nail olaq. 44 gün kimi qısa bir müddət ərzində Ali Baş Komandanın rəhbərli və müzəffər Azərbaycan ordusunun qanı və canı bahasına, xalqımızın qırılmaz ümid və inamı ilə torpaqlarımız geri qaytarıldı. Qarabağın işğaldan azad edilməsinin ən mühüm tərəflərindən biri də bəzi regionların heç bir döyüş əməliyyatı aparılmadan razılıq əsasında qaytarılmasına nail olunmasıdır. Bunu siyasi uğur adlandıra bilərik. Belə ki, 44 günlük II Qarabağ müharibəsi, Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının Baş Nazirinin birgə razılığı əsasında "Üçtərəfli Bəyanat"-ın imzalanması ilə sona çatdı. Bəyanatda işğal olunan torpaqların geri qaytarılması və məcburi qaçqın və köçkünlərin öz torpaqlarına qaytarılması məsələlərilə yanaşı hər iki ölkənin gələcək iqtisadi münasibətlərinə birbaşa təsir göstərəcək bir sıra məsələlərlə bağlı da razılığa gəlinmişdir. Belə ki, Bəyanatın müvafiq maddəsində aşağıdakılar bildirilir (https://www.virtualkarabakh.az/az/post-item/52/2885/ucterefli-beyanat.html) :

- Bölgədəki bütün nəqliyyat və iqtisadi əlaqələr bərpa ediləcəkdir.
- Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək yeni nəqliyyat və kommunikasiyaların inşası təmin ediləcəkdir.
- Laçın dəhlizi boyu hər iki istiqamətdə istər sərnişin, istər yük daşımaları üzrə nəqliyyatın təhlükəsizliyi təmin ediləcəkdir.

Tərəflər arasında razılığa gəlinən məsələlərin təhlili zamanı müəyyən olunur ki, bu şərtlərin yerinə yetirilməsi halında Azərbaycan-Ermənistan arasındakı iqtisadi münasibətlərdə yeni bir dövr başlayacaqdır. 2021-ci il fevral ayında verilən bəyanata görə regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpa edilməsi məqsədilə Üçtərəfli İşçi Qrup təsis edilmişdir. Razılığa gəlinən maddələr üzrə Ermənistan

Respublikasının öz üzərinə düşən işləri yerinə yetirməməsi və Azərbaycanla iqtisadi əlaqələri bərpa etməməsi halında iqtisadi blokadaya düşəcəyi qaçınılmazdır.

Bəs bu razılıq ölkəmizin milli iqtisadiyyatı üçün nə vəd edir? Bu suala cavab vermək üçün, ilk öncə, 2021-ci il 7 iyul tarixində Prezidentin sərəncamı əsasında regionların yeni bölgüsünə aydınlıq gətirmək labüddür. Belə ki, ölkə ərazisinin iqtisadi rayonlara bölgüsü bu ərazilərin ixtisaslaşmasına, istehsal imkanlarına, təsərrüfat formalarına və digər mühüm faktorlara əsasən müəyyən edilir. Ölkəmizdə yeni iqtisadi rayonlaşdırılmanın aparılması bu məsələyə yeni yanaşmanın olduğunun sübutudur. Belə ki, post-müharibə dövründə işğaldan azad edilmiş ərazilərin ölkənin digər ərazilərinə reinteqrasiyasına nail olunmasında, regionun təsərrüfat növləri üzrə ixtisaslaşmasında rayonlaşdırma mühüm əhəmiyyətə malikdir. Ərazinin iqtisadi cəhətdən əsaslandırılmış düzgün regional bölgüsü idarəetmənin çevikliyini təmin etməklə yanaşı, bu regionlarda həyata keçiriləcək inkişaf strategiyalarının da effektivliyinin artırılmasına imkan verəcəkdir. İqtisadi rayonlaşmanın yeni forması işğaldan azad edilmiş ərazilərin spesifik aqrar sektor, turizm, sənaye, tikinti və sair istiqamətlərdə resturukturizasiyasına şərait yardacaqdır. Əvvəlki rayonlaşdırmada Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları yeni təsnifatda, müvafiq olaraq, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə əvəz edilmişdir. Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması həm strateji, həm coğrafi, həm də tarixi baxımdan mühüm əhəmiyyətə malikdir. Bəyanata əsasən Zəngəzur dəhlizi vasitəsilə nəqliyyat və yükdaşımaların təhlükəsizliyi təmin ediləcəkdir. Bu isə o deməkdir ki, Şərqi Zəngəzur iqtisadi rayonu sözügedən dəhliz yolu ilə otuz ilə yaxındır ki, Azərbaycan Respublikasından quru sərhədi tamamilə kəsilmiş Naxçıvan Muxtar Respublikasına və qardaş Türkiyə Cümhuriyyətinə çıxışı təmin edəcəkdir. Avtomobil və dəmiryolu xətlərinin çəkilməsi, lazımi nəqliyyat-kommunikasiya sistemlərinin yaradılması Türkiyə və onun ərazisindən keçərək Cənubi Avropa ölkələrinə çıxış imkanlarını genişləndirəcəkdir. Artıq Naxçıvan Muxtar Respublikasında daxili bazarının tələbinin ödənilməsinə daha aşağı iqtisadi

xərclərlə nail oluna biləcəkdir. Həmçinin buranın istehsal sturukturlarının, iqtisadi fəaliyyət istiqamətlərinin ölkənin digər regionları ilə birbaşa qarşılıqlı əlaqəsi təmin ediləcəkdir. Yeni iqtisadi bölgü ilə bağlı verilən fərmanda o da qeyd edilmişdir ki, 2019-cu ildən başlayaraq beş il müddətinə (2023-cü ilə qədər) dövrü əhatə edən regionların sosial-iqtisadi inkişafına yönəlmiş müvafiq dövlət proqramının məqsədləri üçün nəzərdə tutulan layihələr, görüləcək işlər və sair məhz bu bölgü üzrə həyata keçirilsin. Qarabağın yenidənqurma və bərpa işləri onun ölkənin digər regionlarına reinteqrasiyasına müvafiq surətdə işlənib hazırlanması nəzərdə tutulmuşdur(https://ereforms.gov.az/az/media/xeberler/ramil-huseyn-iqtisadi-rayonlarin-yeni-bolgusu-qarabagin-ve-serqi-zengezurun-inkisafini-suretlendirecek-183).

Bölgədə sabitliyə nail olunması və işğaldan azad edilmiş ərazilərin yenidənqurulması ölkə iqtisadiyyatının investisiya cəlbediciliyinə müsbət təsir göstərəcək və onu artıracaqdır. Belə ki, otuz ilə yaxındır ki, ökəmizin müharibə şəraitində olması, zaman-zaman atəşkəsin pozulması kimi hallar milli iqtisadiyyatın xarici investorlar üçün cəlbediciliyini aşağı salırdı. Lakin post-müharibə dövründə işğaldan azad edilmiş ərazilərdə yenidənqurma ilə bağlı görülən işlər, yaradılan imkanlar xarici investorların buraya marağını atırmışdır. Qeyd etdiyimiz kimi, hətta regionda su elektrik stansiyalarının tikilməsində Çin şirkətləri də iştirak edəcəklər.

Regiona xarici və daxili investorların cəlbedilməsi məqsədilə ərazinin biznes mühitinin yaxşılaşdırılması istiqamətində dövlət səviyyəsində müəyyən işlər görülür, müvafiq proqramlar hazırlanır. Bildiyimiz kimi, investorların qərarverməsinə təsir edən ən önəmli faktorlarından biri ölkənin vergi mühitidir. Bu səbəbdən iqtisadiyyatın dövlət tənzimlənməsində fiskal tənzimlənmə metodlarından istifadə edilir və sahibkarların regiondakı fəaliyyətini stimullaşdırmaq məqsədilə müəyyən vergi güzəştləri və azadolmalar tətbiq edilir. Eyni zamanda iqtisadi fəaliyyət növlərinin fəaliyyətinə dəstək məqsədilə dövlət büdcəsindən maliyyə yardımlarının göstərilməsi, büdcə ssudalarının, dotasiya, subsidiya və subvensiyaların ayrılacağı da istisna edilmir.

# II FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN MÖVCUD İQTİSADİ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ STATİSTİK TƏHLİLİ

## 2.1. İşğaldan azad olunmuş ərazilərin "Yaşıl Enerji Zonası" kimi inkişaf istiqamətlərinin araşdırılması

Ənənəvi resuslardan istifadəyə əsaslanan və "qəhvəyi iqtisadiyyat" adı ilə tanıdığımız inkişaf modeli (brown economy) davamlı və dayanıqlı inkişaf konsepsiyasının ortaya çıxması ilə öz yerini yaşıl iqtisadiyyata verməyə başlamışdır. Qəhvəyi iqtisadiyyat modeli enerji səmərəliliyinin aşağı olması, ənənəvi resurslardan istifadənin sürətli artımı, iqlim parametrlərinin nəzərə alınmaması, dayanıqlı olmayan və tükənən resurslardan istifadənin üstünlüyü, istehsalda gələcək nəsillərin payının olub-olmamasının nəzərə alınmaması kimi məsələləri nəzərə almırdı. Yaranan ekoloji problemlər, əsas enerji mənbələrinin sürətlə tükənməsi, artan istehlakçı istəklərinə müvafiq genişlənən istehsal sektorlarının daha çox resursa ehtiyac duyması dünya iqtisadiyyatında yeni, alternativ resurslardan istifadə zərurətini ortaya qoydu. Yaşıl enerjidən istifadəyə maraq yaradan başlıca faktorlar məhz bunlar olmuşdur. Məlmdur ki, 2050-ci illərədək dünya neft ehtiyyatlarının tükənəcəyi ehtimal edilir. Belə olan halda, əvəzedici resursların müəyyən edilməsi və onlardan istifadə imkanlarının genişləndirilməsi dünya iqtisadiyyatının qarşısında duran başlıca problemlər sırasındadır.

İqtisadi ədəbiyyatlarda su, günəş, külək, geotermal resurslar və biokütlə hesabına əldə edilən enerji yaşıl enerji olaraq ifadə edilir. Yaşıl enerjidən istifadənin beynəlxalq miqyasda əhəmiyyətliliyi onun karbon emissiyasını azaltması və ətraf mühitə minimum zərəri ilə izah edilə bilər. Beynəlxaq Enerji Agentliyinin müvafiq hesabatında bildirilir ki, yaxın otuz ildə dünya ölkələrində istifadə edilən enerji resurslarının 50%-ə qədəri məhz yaşıl enerji ehtiyyatları hesabına təmin ediləcəkdir (Rəşidov L., 2020).

Yaşıl enerjidən istifadənin zəruriliyi davamlı və dayanıqlı inkişaf konsepsiyasında da öz yerini tutmaqdadır. Bildiyimiz kimi, iqtisadi resurslardan istifadəyə yeni yanaşma olaraq qiymətləndirilən davamlı inkişaf konsepsiyası üç məsələnin həllinə istiqamətlənmişdir:

1. İqtisadiyyatın davamlı inkişafı ekosistemin tamlığına müvafiq olmalıdır.
2. Resurslardan və mövcud imkanlardan istifadə zamanı indiki nəsillərlə yanaşı, gələcək nəsillər, habelə digər canlıların istifadə imkanları məhdudlaşdırılmamalıdır. Resursların ədalətli bölgüsü prinsipi gözlənilməlidir.
3. Təbii kapitalı müvafiq olaraq nəzərə alan ehtiyyatların düzgün allokasiyasına nail olunmalıdır (http://elibrary.bsu.edu.az/files/books_rax/N_362.pdf).

Yüzə yaxın beynəlxalq qurumun, fondun, birliyin yaşıl iqtisadiyyat və yaşıl enerji üzərində təhlillər və araşdırmalar aparması, habelə hər il bu istiqamətdə milyardlarla dollar vəsaitin sərf olunması sözügedən sahənin qlobal miqyaslı əhəmiyyət daşıdığını sübut edir.

Alternativ enerji mənbələrindən istifadənin dünya iqtisadiyyatı üçün əhəmiyyətini müəyyən etdikdən sonra, ölkəmizin milli iqtisadiyyatının davamlı inkişafına nail olmaq üçün yaşıl enerjiyə keçidin nə qədər mühüm proses olduğu aydın olur. Bildiyimiz kimi, beynəlxalq arenada yaşıl iqtisadiyyata keçid təkcə yüksək inkişaf etmiş ölkələr tərəfindən deyil, eyni zamanda inkişaf etməkdə olan ölkələr tərəfindən də dəstəklənməkdədir. Azərbaycan enerji sektoru yüksək faiz göstəriciləri ilə neft və qazdan asılı olsa da, bu resursların tükənən resurs olması və ətraf mühitə olan ciddi ziyanları hamımıza məlumdur. Bu səbəbdən əhalinin və yerli istehsalın enerji təminatının alternativ enerji mənbələri hesabına həyata keçirilməsi ekoloji vəziyyəti yaxşılaşdırmaqla qalmayıb, həmçinin gələcək zamanda dayanıqlı inkişafı da təmin edəcəkdir. Son on ildir ki, ölkəmizdə alternativ enerji mənbələrindən istifadə ölkə miqyasında həyata keçirilməyə başlanmışdır. Bunun üçün günəş və külək enerjisi potensialından istifadə edilməkdə idi. Lakin torpaqlarımızın işğaldan azad edilməsi ilə yaşıl enerjidən istifadə məsələsinə yenidən baxılması labüd hala çevrilmişdir. Buna səbəb həmin ərazilərin müxtəlif alternativ enerji mənbələri ilə zəngin olmasıdır. Yaxın

gələcəkdə ölkənin enerji asılılığından qorunması və daha təmiz enerji resurslarından istifadə edə bilməsi üçün bu imkanların düzgün qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Hələ 2020-ci ilin yekunlarına dair hesabatın təqdimatı zamanı Prezident İlham Əliyev Qarabağ torpaqlarını yaşıl enerji zonası kimi görmək istədiyini bildirmişdir. Torpaqların işğaldan azad edilməsindən dərhal sonra bu istiqamətdə müvafiq proqramların işlənib hazırlanmasına başlanmışdır. "Yaşıl məkan" konsepsiyası kimi adlandırılan bu proqramlar regionda bərpaolunan və ekoloji cəhətdən təmiz enerji resurslarından istifadəni, ekoloji təmiz texnika və texnologiyaların tətbiqini, enerjinin səmərəliliyini və sair nəzərdə tutur. Qarabağın yaşıl enerji zonasına çevrilməsilə bağlı məsələnin bütün tərəfləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-də öz əksini tapmışdır.

2 fevral 2021-ci il tarixində verilən sərəncama əsasən qarşıdakı on illik müddət ərzində milli iqtisadiyyatda davamlı və dayanıqlı inkişafa nail olunması üçün beş milli prioritet qəbul olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, yaşıl enerji zonasının yaradılması məqsədilə 2021-ci ilin büdcəsindən bir milyon üç yüz doxsan bir min qırx dollar dəyərində vəsait ayrılmışdır. Bu vəsait milli valyuta olan manat ekvivalenti ilə Energetika Nazirliyinə verilmişdir ki, müvafiq istiqamətlər üzrə istifadə edilsin (https://president.az/az/articles/view/50474). Sözügedən milli prioritetlər mahiyyət etibarı ilə aşağıdakıları nəzərdə tutur:

1. 30 ilə yaxındır ki, yurdlarından qaçqın və köçkün düşmüş əhali qruplarının işğaldan azad edilmiş ərazilərə böyük qayıdışının təmin edilməsi
2. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması
3. Sosial ədalət prinsiplərinə əsaslanan, dinamik və inkluziv cəmiyyətin formalaşdırılması
4. Ölkədə müasir innovasiyalardan istifadə imkanlarının genişləndirilməsi və insan kapitalının inkişafı
5. "Yaşıl artım" ölkəsi və ekoloji cəhətdən təmiz ətraf mühit.

Göründüyü kimi, qarşıya qoyulan inkişaf istiqamətlərindən biri də məhz ölkənin yaşıl iqtisadiyyata keçidini təmin etməkdir. İqlim dəyişikliklərinin qlobal

problem xarakteri aldığı müasir dövrümüzdə ekoloji cəhətdən təmiz və mümkün qədər tullantısız texnologiyalardan istifadənin, istixana effektinin beynəlxalq normalara uyğunluğunun gözlənilməsi, təmiz və bərpaolunan enerjidən istifadə, tullantıların təkrar emalı, sıradan çıxmış ərazilərin bərpası təşviq edilməlidir (https://president.az/az/articles/view/50474).

Bərpaolunan alternativ enerji resursları ilə təminat səviyyəsi yüksək olan Qarabağ zonasının "Yaşıl Enerji Zonası"-na çevrilməsi ölkə iqtisadiyyatı üçün yeni bir mərhələnin başlanğıcı, habelə bütövlükdə milli iqtisadiyyatın yaşıl iqtisadiyyata keçidində mühüm addım olacaqdır.

Ölkəmizdə günəş enerjisindən istifadə imkanlarına sahib ərazilər siyahısında, xüsusilə Cəbrayıl, Zəngilan və Füzuli rayonları ərazisində yerə düşən günəş radiyasiyasının miqdarı enerji mənbəyi kimi istifadə edilməyə kifayət edəcək qədərdir. Və potensialına görə yalnız Naxçıvan MR ərazisindn geri qalır. Təbii ki, ərazinin alternativ enerji resursları ilə təminat səviyyəsinin dəqiqləşdirilməsi bu ərazilərdə müvafiq ölçü müşahidə cihazlarının yerləşdirilməsindən sonra müəyyən ediləcəkdir. İlkin müşahidələr isə göstərir ki, sözügedən rayonlarda üfüqi səthə düşən günəş şüalarının illik göstəricisi 1600-1800 kilovat/saat arasında dəyişir. Buranın illik günəş enerjisi potensialının isə təxminən 3000-4000 meqavat olduğu istisna edilmir (https://www.azerbaijan-news.az/posts/detail/susanin-bir-parcasi-1621715919).

İranla sərhəd düzən ərazilərdə günəş enerjisindən istifadə imkanları olduğu kimi, dağlıq ərazilər də külək enerjisindən istifadə üçün əlverişidir. Qarabağın orta və yüksək dağlıq ərazilərində küləyin illik orta sürəti 7-8 metr arasında dəyişir. Digər regionlara nisbətdə Kəlbəcər və Laçın rayonlarında külək enerjisi potensialı daha çoxdur. Rayonların Ermənistan Respublikası ilə sərhəd ərazilərində küləyin illik orta sürəti saniyədə on metrə çatır. Doğrudur, son bir neçə ildə lazımi texnika və texnologiyaların, avadanlıqların bahalığı səbəbindən külək enerjisi daha az səmərəli alternativ enerji mənbələrindən sayılsa da, yaxın gələcəkdə ondan istifadənin səmərəliliyinin artırılacağı da istisna edilmir. İlkin qiymətləndirmələrə əsasən, dağlıq ərazilərin külək enerjisi üzrə mövcud potensialı 5000 meqavat gücündədir.

Yaşıl Zonanın yaradılması yönündə atılan əsaslı addımlardan biri Yaponiyanın dünyaca məşhur və beynəlxaq təcrübələrlə sınanmış “Tepsco” şirkəti ilə ölkəmizin Energetika Nazirliyi arasında müvafiq müqavilənin bağlanması olmuşdur. “Tepsco” şirkəti Vyetnam, Braziliya, İndoneziya, Tailand, Malayziya və sair ölkələrdə yaşıl enerji məntəqələrinin qurulması, enerjinin ağıllı idarəedimәsi proqramlarının həyata keçirilməsi kimi bir sıra layihələrin də müəllifidir. Nazirlik sözügedən əməkdaşlıqla bağlı bildirir ki, nəzərdə tutulan lahiyələr çərçivəsində beynəlxq təcrübə araşdırılacaq, bu təcrübələrin Qarabağda tətbiq imkanları qiymətləndiriləcək, məskunlaşan əhalinin enerji tələbatları əsasında müvafiq təchizat proyektləri hazırlanacaq. Həmçinin, Qarabağın Yaşıl Enerji Zonasına çevrilməsi mahiyyət etibarilə alternativ enerji mənbələrindən səmərəli istifadə, regionun yenidənqurmasında yaşıl texnologiyalardan istifadənin təmini, enerjinin səmərəli idarəetməsini nəzərdə tutan yeni yanaşmaların tətbiqi məsələlərini də özündə ehtiva etməkdədir. Qarşıya qoyulan məqsədə çatmaq üçün baş plan və müvafiq layihələrin hazırlanmasına artıq başlanmışdır. Layihə çərçivəsində geotermal, günəş, külək və su kimi bərpalunan enerji resurslarından effektiv istifadəni təmin edən işlərlə yanaşı, ağıllı enerji şəbəkələrinin yaradılması, alternativ enerjinin ölkənin ümumi enerji şəbəkəsinə inteqrasiyası, yaşıl maliyyələşdirmə, tullantılardan səmərəli istifadə və idarəetmə, effektiv nəqliyyat və şəhərsalma kimi məsələlər də ön planda olacaqdır. Ölkəmizdə isə 2024-ci ilədək enerji sektorunda bərpaolunan enerjidən istifadənin 30%-ə çatdırılması planlaşdırılır. Bu sahədə işğaldan azad edilmiş ərazilərin mövcud potensialından istifadə qarşıya qoyulan hədəflərə çatmaqda mühüm əhəmiyyət kəsb edir (https://www.azerbaijan-news.az/posts/detail/susanin-bir-parcasi-1621715919).

Alternativ enerji mənbələri hesabına elektrik əldə edilməsi ənənəvi resurslarla müqayisədə daha çox maliyyə ehtiyyatı tələb edir. Bu səbəbdən, Qarabağın yaşıl enerji zonasına çevrilməsində daxili və xarici investorların fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Sektorun investisiya cəlbediciliyinin artırılması həm mövcud müəssisələrin özəlləşdirilməsi, həm də yeni elektirk stansiyalarının yaradılması ilə mümkün olacaqdır.

Statistik göstəricilərə baxdıqda məlum olur ki, ötən il ərzində ölkə ərazisində yaradılan elektrik enerjisinin 90%-dən çoxu istilik elektrik stansiyalarının payına düşüb. İstehsal edilən elektrik enerjisinin təxminən 4%-lik hissəsi SES-də, 1,5%-i isə külək və günəş enerjisi, habelə tullantılardan alınan enerji hesabına formalaşmışdır (https://azerforum.com/az/qarabag-nece-yashil-enerji-zonasina-cevrilecek). Ölkəmizin yerli su ehtiyyatlarının 1/4 hissəsi işğaldan azad edilmiş ərazilərdə formalaşmaqdadır. Bu isə təqribən 2,560 milyon $m^3$ su ehtiyyatı deməkdir. Doğrudur ki, ərazidə işğal dövründən qalma və ondan əvvəlki dövrlərdə inşa edilmiş otuzdan çox su elektrik stansiyası mövcuddur, ancaq baxımsızlıqdan və ya effektiv istifadə edilmədiklərindən istifadəyə yararsız hesab olunurlar. Hazırda onların iş imkanlarının yenidənqiymətləndirilməsi və inventarlaşması aparılmaqdadır (https://azerforum.com/az/qarabag-nece-yashil-enerji-zonasina-cevrilecek ).

İşğaldan azad edilmiş ərazilərdə alternativ enerji mənbələrindən istifadəni təmin etməklə yaşıl enerji zonasının yaradılması müxtəlif aspektlərdən ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərəcəkdir. Məlumdur ki, Azərbaycan əhalinin və istehsal sahələrinin elektrik enerjisinə olan ehtiyacının 90%-dən çox hissəsi qaz hesabına təmin edilir. Neft və qaz isə tükənən və ekoloji cəhətdən çirkli enerji mənbələridir. Belə olan halda yaşıl enerjidən istifadənin ölkə iqtisadiyyatına gözlənilən təsirlərini aşağıdakı kimi sıralamaq olar:

- Əsas enerji mənbəyi hesab edilən qaz ehtiyyatlarına qənaət edilməklə, enerji resurslarının ixrac potensialını artırmaq imkanı yaranacaq.
- İxrac həcminin artımı milli iqtisadiyyata valyuta axımına şərait yaradacaq.
- Ölkəmizin enerji istehsal mənbələri diversifikasiya ediləcək.
- Azad edilmiş ərazilərdə yenidən məskunlaşan əhalinin məşğulluq məsələsinə töhvə verəcəkdir.
- Qarabağın relyefini nəzərə alsaq, qaz çəkilişinin səmərəli olmadığı və texniki cəhətdən mümkünsüz olduğu ərazilərdə enerjiyə olan ehtiyacın alternativ üsullarla təmin edilməsi mümkün olacaqdır.

Son olaraq qeyd etmək istərdim ki, Qarabağın yenidənqurmasında yaşıl enerji layihələrindən istifadə, ağıllı şəhərlərin və kəndlərin qurulması, yaşıl

maliyyələşdirmənin tətbiqi və sair hesabına ölkəmizin dünya miqyasında yaşıl zona ölkəsi kimi tanınmasına səbəb ola bilər. Bu da özü ilə bərabər ölkə iqtisadiyyatının regional və beynəlxalq reputasiyasını artıracaq və yeni üstünlükləri təmin edəcəkdir.

## 2.2. Qarabağın kənd təsərrüfatı və sənaye sektorları üzrə mövcud iqtisadi imkanlarının təhlili

Son dövrlərdə dünya iqtisadiyyatında baş verən dəyişikliklər təkcə təbii resurs asılılığı olan ölkələrdə deyil, inkişaf etmiş ölkələrdə də qeyri neft-qaz sektorunun əhəmiyyətini ortaya qoydu. 2020-ci ildən etibarən pandemiya halını almış Covid-19 virusu istehsalın müxtəlif səviyyələrində müəyyən geriləmələr yaratdı. Dövlət büdcəsi gəlirlərinin əsas hissəsi ənənəvi resurslardan gələn gəlirlər hesabına formalaşan Azərbaycan iqtisadiyyatı üçün də qeyri neft-qaz sektorunun inkişaf etdirilməsi olduqca mühümdür. Torpaqlarımızın işğaldan azad edilməsi istehsal sahələrinin şaxələndirilməsinə imkan verməklə, alternativ ixrac istiqamətlərini formalaşdıracaqdır. Qarabağ və Şərqi Zəngəzur regionunun mövcud imkanlarını dəyərləndirdiyimiz zaman buranın kənd təsərrüfatı və sənaye sahələrinin inkişafı üçün əlverişli torpaq-iqlim xüsusiyyətlərinə və sənaye xammalına malik olduğunu görürük.

Torpaqların azad edilməsindən dərhal sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq qərarı əsasında bu ərazilərdə səmərəli idarəetməni təşkil etmək məqsədilə müvafiq komendatlıq təşkil edilmişdir. Həmçinin Kənd Təsərrüfatı Nazirliyi tərəfindən əkinəyararlı torpaq sahələrinin təyin edilməsinə, istehsal vasitələri və aqrar sənaye texnikalarının uçotunun aparılması, epizootik və fitosanitar vəziyyətin qiymətləndənirilməsinə başlanmışdır. Hesablamalara görə, işğal zamanı 280 min ha meşə sahəsi, bir milyon hektardan çox məhsuldar torpaqlar, 34 min hektar meyvə və üzüm bağları sahəsi, 127 min hektardan çox suvarılan ərazilər, 1200 km irriqasiya suvarma sistemi ələ keçirilmişdir. Kənd təsərrüfatına dəyən ziyan bununla da qalmamışdır. Belə ki, işğal edilmiş ərazilərin

yaxınlığında yerləşən 120 min ha kənd təsərrüfatına yararlı torpaq sahəsi təsərrüfat dövriyyəsindən çıxmışdır. Buna səbəb həmin rayonların əkinəyararlı torpaq sahələrinin suvarılmasını təmin edən mənbələrin işğalçıların əlinə keçməsi olmuşdur. İşğaldan əvvəlki dövr üçün bu regionun kənd təsərrüfatı məhsullarının əhəmiyyəti ölkə iqtisadiyyatı üçün olduqca mühüm əhəmiyyət kəsb edirdi. Çünki Qarabağ regionunda istehsal edilən kənd təsərrüfatı məhsulları ölkə üzrə ümumi istehsalın 40%-ə qədərini təşkil edirdi (Fikrətzadə F.F., Hacıyeva S.İ., 2020: səh.30-33). Regionun başlıca bitkiçilik sahələri pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik və bostançılıq olmuşdur. Bundan əlavə ipəkçilik və baramaçılıq da regionun ənənəvi fəaliyyət sahələrindən hesab olunur. Relyefindən asılı olaraq xırda və iribuynuzlu heyvandarlığın inkişaf etdirilməsi də mümkündür. Bütün bunlar, öz növbəsində, emal və yeyinti sənaye sahələrinin inkişafını stimullaşdıracaqdır. Doğrudur, ölkəmizin ət və süd məhsulları ilə özünü təmin etmə səviyyəsi yüksəkdir. Ət və ət məhsullarına olan tələbatın 86%-i, süd və süd məhsullarına olan tələbatın isə 82%-i yerli istehsal hesabına təmin edilir. İşğaldan azad edilən ərazilərdə heyvandarlığın səmərəli təşkilinə nail olunarsa bu, yaxın gələcəkdə ölkəmizin daxili bazarının tam yerli istehsalla təmin edilməsi və ixrac imkanlarının artırılmasına imkan verəcəkdir. Çəltik istisna edilməklə dənli bitkilərin yetişdirilmə imkanı artdığından daxili bazarın özünü təminetmə səviyyəsinin 70%-ə qədər artırılması mümkündür.

Ərazidə kənd təsərrüfatı məhsullarının istehsal imkanlarını təyin etmək məqsədilə “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq edilməyə başlanmışdır. Belə ki, torpaqların peyk vasitəsilə görüntülərinin əldə edilməsi ərazilərin yararlılıq və deqradasiya səviyyəsini müəyyən etməyə imkan verir. İlkin qiymətləndirmələr zamanı bu torpaqların işğaldan əvvəlki məhsuldarlıq göstəriciləri ilə gözlənilən nəticələr qarşılaşdırılır və effektiv tədbirlər görülməsi istiqamətində layihələr işlənib hazırlanır. Peyk vasitəsilə əldə edilən görüntülər ənənəvi qiymətləndirmələrlə müqayisədə dolğun olduğundan, aşkar edilən problemlərin həlli istiqamətində effektiv addımların atılmasına əlverişli şərait yaradır.

**Cədvəl 1: Perspektivdə əkin sahələrinin proqnozlaşdırılan strukturu, hektarla (2020)**

| Taxıl | Pambıq | Tütün | Kartof, tərəvəz, bostan | Yem bitkiləri | Meyvə və giləmeyvə | Üzüm |
|---|---|---|---|---|---|---|
| Qarabağ | 48,500 | - | - | 2,100 | 400 | 1,700 |
| Ağdam* | 28,862 | 4,601 | - | 9,816 | 16,909 | 2,565 |
| Cəbrayıl | 10,400 | - | - | 300 | 7,300 | 800 |
| Füzuli* | 50,465 | 1,300 | - | 1,769 | 12,579 | 2,679 |
| Kəlbəcər | 900 | - | 200 | 200 | - | 500 |
| Qubadlı | 6,300 | - | 400 | 400 | 1,000 | 2,500 |
| Laçın | 2,300 | - | - | 200 | 1,000 | 500 |
| Zəngilan | 1,900 | - | 300 | 300 | 2,500 | 2,200 |
| Cəmi sahə | 149,627 | 5,901 | 900 | 15,085 | 41,688 | 13,443 |

**Mənbə:** Fikrətzadə F.F., Hacıyeva S.İ. "İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması", Kənd Təsərrüfatının İqtisadiyyatı: jurnal, (2020) № 4.- səh: 32.

Verilmiş cədvəldə Qarabağ və Şərqi Zəngəzura daxil olan bütün rayonlar üzrə torpaq sahələrinin perspektiv imkanları müəyyən bitkiçilik məhsulları üzrə öz əksini tapmışdır. Ağdam rayonun ərazisinin 70%-i düşmən işğalı altında olmuşdur. İşğaldan əvvəlki dövrdə rayonda on yeddi min hektarlıq ərazidə bitkiçilik məhsulları yetişdirilirdi. Həm ictimai, həm də şəxsi təsərrüfatçılığın mövcud olduğu Ağdamda 40 min baş iribuynuzlu heyvan, 244 mindən çox xırdabuynuzlu heyvan, 44 mindən çox arı ailəsi və 1500 hektara yaxın ərazidə meyvə ağacları var idi. Burada 31 hektarlıq ərazidə kartof becərildiyi də məlumdur (Fikrətzadə F.F., Hacıyeva S.İ., 2020).

Post-konflikt dövründə isə Ağdamda, əsasən, pambıqçılıq, tütünçülük, meyvə və giləmeyvə yetişdirilməsi planlaşdırılır. Həmçinin Cəbrayıl rayonunun düzən ərazilərində də pambıqçılıq, üzümçülük və meyvəçilik məhsullarının yetişdirilmə

imkanları genişdir. Qeyd edək ki, işğaldan əvvəlki dövr üçün də Cəbrayıl rayonu üzümçülük, taxılçılıq, baramaçılıq və quşçuluq sahələri ilə məşhur olmuşdur.

İşğaldan əvvəl Füzuli rayonunda kənd təsərrüfatına yararlı torpaq sahələrinin cəmi 85 min ha idisə, hazırkı hesablamalar bu göstəricinin 69 min hektar olduğunu bildirir. Boz, şabalıdı torpaqlar rayonun iqtisadiyyatının kənd təsərrüfatı təyinatlı olmasına imkan verir. Yaxın perspektivdə bu ərazinin pambıqçılıq, yem bitkiləri, meyvə və giləmeyvələrin yetişdirilməsi, habelə üzümçülük üzrə ixtisaslaşacağı proqnozlaşdırılır.

**Cədvəl 2: 1980-ci illərdə heyvanların baş sayı, min baş (2020)**

| | **İribuynuzlu heyvanlar - cəmi** | **ondan inək və camışlar** | **Xırdabuynuzlu heyvanlar - cəmi** |
|---|---|---|---|
| Qarabağ | 95.6 | 30.7 | 264.3 |
| Ağdam | 44.4 | 16.4 | 191.8 |
| Cəbrayıl | 26.4 | 8.9 | 114.2 |
| Füzuli | 37.8 | 13.4 | 149.0 |
| Kəlbəcər | 31.9 | 11.0 | 97.4 |
| Qubadlı | 22.8 | 8.3 | 30.6 |
| Laçın | 43.0 | 14.8 | 224.8 |
| Zəngilan | 19.1 | 6.8 | 34.6 |
| Cəmi heyvan sayı | 321.0 | 110.3 | 1106.7 |

**Mənbə:** Fikrətzadə F.F., Hacıyeva S.İ. "İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması", Kənd Təsərrüfatının İqtisadiyyatı: jurnal, 2020 № 4.- səh: 34.

Cədvəl 80-ci illərdə verilmiş bölgələr üzrə əsas heyvandarlıq növlərinin sayını ifadə edir. Statistika Komitəsinin məlumatlarına əsasən deyə bilərik ki, işğaldan əvvəlki dövr üçün burada bir milyon başdan artıq xırdabuynuzlu, 320 min baş iribuynuzlu mal-qara mövcud olmuşdur. Hazırki dövrdə məcburi qaçqın və köçkünlərin öz təsərrüfatları və mal-heyvanları ilə birgə azad edilmiş bölgələrə qayıtmasını nəzərə alaraq hesablama apardığımız zaman 80-ci illərlə müqayisədə xırdabuynuzlu heyvanların sayında 19%, iribuynuzlu heyvanlarda isə 17% artım

olduğunu müşahidə edərik. Bu məlumatlar milli iqtisadiyyatın müvafiq yeyinti məhsulları üzrə idxalın əvəzləşdirilməsi imkanlarının böyük olduğunu göstərir. Daxili tələbatın yerli istehsal hesabına təmin edilməsi yaxın gələcəkdə həmin məhsullar üzrə ixrac imkanları yaradacağını da istisna etmir. İri və xırdabuynuzlu heyvandarlığın inkişafı yerli bazarın ət və süd məhsulları ilə təminat səviyyəsini də yüksəldəcəkdir.

**Cədvəl 3: Perspektiv dövrdə heyvanların baş sayı, min baş (2020)**

| | **İribuynuzlu heyvanlar - cəmi** | **ondan inək və camışlar** | **Xırdabuynuzlu heyvanlar - cəmi** |
|---|---|---|---|
| Qarabağ | 127.9 | 41.0 | 376.6 |
| Ağdam | 59.4 | 22.0 | 273.2 |
| Cəbrayıl | 35.3 | 11.8 | 162.7 |
| Füzuli | 50.5 | 18.0 | 212.3 |
| Kəlbəcər | 42.6 | 14.6 | 155.3 |
| Qubadlı | 30.5 | 11.1 | 43.6 |
| Laçın | 57.5 | 19.8 | 320.3 |
| Zəngilan | 25.6 | 9.1 | 49.2 |
| Cəmi heyvan sayı | 429.3 | 147.4 | 1,593.2 |

**Mənbə:** Fikrətzadə F.F., Hacıyeva S.İ. "İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması", Kənd Təsərrüfatının İqtisadiyyatı: jurnal, 2020 № 4.- səh: 34.

İkinci və üçüncü cədvəlin təhlilindən aydın olur ki, yaxın perspektivdə işğaldan azad edilmiş ərazilərdə heyvandarlıq məhsulları istehsalında əsaslı artım müşahidə edilə bilər. Əlbəttə, yeni texnika və texnologiyalardan istifadə, ağıllı idarəetmə mexanizmlərinin qurulması, düzgün planlaşdırma və digər bütün tədbirlər ərazinin kənd təsərrüfatı potensialından maksimum səmərəli istifadəni təmin edəcəkdir.

Onu da qeyd edək ki, Qarabağda heyvandarlıq təkcə ətlik və südlük istiqamətlərdə olmayıb, həmçinin baramaçılıq, atçılıq və arıçılıq istiqamətlərində də inkişaf etdiriləcəkdir.

Ölkəmizdə ilk dəfə işğaldan azad edilmiş ərazilərdə ağıllı kənd təsərrüfatı sistemlərinin qurulmasına artıq başlanmışdır. Bildiyimiz kimi, qloballaşan

dünyamızda texnika və texnologiyaların sürətli inkişafı onların müəyyən formalarda istehsal sahələrinə tətbiqini də genişləndirmişdir. İKT texnologiyalarının innovasiyalaşması və bir sıra genetik kəşflər aqrar sektor üzrə onların nəticələrinin tətbiqinə imkan verir. Beləliklə, üçüncü yaşıl inqilab adlandırılan yeni istehsal mərhələsi ortaya çıxmışdır. Burada kənd təsərrüfatı istehsalının maksimum səmərəliliyinin təmin edilməsi və davamlı istehsala nail olunması məqsədilə istehsalda aktuator və sensorlardan, robot texnikasından, müasir dəqiq avadanlıqlardan, BIG DATA-dan, pilotsuz avadanlıqlardan və sair istifadə nəzərdə tutulur. Həmçinin ağıllı kənd təsərrüfatı istehsalda süni intellektin tətbiqini də istisna etmir. Süni intellekt insan fəaliyyətinin bütün səviyyələrinə nüfuz etmişdir. Son illər kənd təsərrüfatı məhsullarının yetişdirilməsində bir sıra məqsədlər üçün ondan istifadə edilməkdədir. Süni intellektin tərkib hissəsi olan peyk müşahidə sistemləri zərərvericilərin təyin edilməsində və bitkilərin inkişaf dövrlərinin izlənilməsində olduqca effektivdir. Bununla bitkilərin inkişaf səviyyələrinə müvafiq gübrələmə, fermentləmə əməliyyatları aparılaraq, zərərvericilərə qarşı mübarizə məqsədilə kimyəvi fermentləmə işləri görülərək və boy simulyatorlarından istifadə edilərək məhsuldarlığın artırılmasına nail olunur (Hüseynova İ.M., 2020).

Bitki və heyvanların seleksiyasında ən önəmli ünsürlərdən biri, əlbəttə ki, fenotipləmənin düzgün aparılmasıdır. Ağıllı kənd təsərrüfatında isə fenotipləmə rəqəmsal formada həyata keçirilir. Rəqəmsal fenotipləmə hesabına bitkilərin fizioloji vəziyyətləri müəyyən alqoritmlər hesabına daha dəqiq və etibarlı nəticələri təmin edəcək şəkildə aparılır.

Qarabağda aqrar sənaye, yüngül və yeyinti sənayesi ilə yanaşı metallurgiya və dağ-mədən sənaye sahələrinin də inkişaf potensialı böyükdür. Hesablamalara görə, sənaye üçün əhəmiyyətli hesab edilən qızıl filizlərinin dünya qızıl bazarındakı dəyəri səkkiz milyard ABŞ dollarına bərabərdir. Bununla yanaşı, region tikinti materialları, mis, civə, alminium, qurğuşun, sink, kobalt və sair əlvan metal filizlərilə zəngindir. Bu ehtiyatların mümkün sənaye potensialının düzgün qiymətləndirilməsi və onlardan səmərəli istifadənin təmin edilməsi milli

iqtisadiyyatımızın qarşısında duran mühüm vəzifələrdən biridir. Bu məqsədlə, ərazinin investisiya cəlbediciliyini artırmaq və rəqabətqabiliyyətli iqtisadi mühit yaratmaq üçün müvafiq tədbirlər görülməkdədir. 28 may 2021-ci il tarixli fərmanla işğaldan azad edilmiş ərazilərdə özəl sektorla dövlət sektoru arasında əməkdaşlığın təmini məqsədilə sahibkarlıq subyektlərinə bir sıra güzəştlərin tətbiqini nəzərdə tutan Ağdam Sənaye Parkının yaradılmasına başlanmışdır. Burada istehsal funksiyalarını yerinə yetirmək üçün tələb olunan infrastrukturların qurulmasına artıq başlanmışdır. Regionda yaşıl zona konsepsiyasına müvafiq, innovativ və rəqabətqabiliyyətli sənaye istehsal sahələrinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən həmin ilin 4 oktyabr tarixində "Araz vadisi iqtisadi zonası" Sənaye Parkının yaradılmasıyla bağlı fərman verilmişdir. Sözügedən sənaye parkı Cəbrayıl rayonu ərazisində yaradılacaqdır və tranzit daşımalar, logistika, ticarət və sair bu kimi xidmətlərin göstərilməsi üçün istifadə ediləcəkdir. Buranı perspektivli edən əsas cəhətlərdən biri ərazinin Naxçıvan Muxtar Respublikasına gedən quru yolları üzərində yerləşməsi və nəqliyyat-kommunikasiya proseslərində birbaşa iştirak etməsidir (https://www.economy.gov.az/article/s%C9%99naye-park%C4%B1/21403).

## 2.3. Qarabağın turizm sektoru üzrə inkişaf potensialının təhlili

İqtisadiyyatın regional inkişafının təmin edilməsində turizm sektorunun əhəmiyyətli rolu danılmazdır. Son əlli ildə dünya turizm bazarında ölkələr üzrə turizm destinasiyalarının sayında ciddi artım müşahidə edilməkdədir. Bu fakt bir tərəfdən turizm sənayesinin ixtisaslaşmasını sürətləndirsə də, digər tərəfdən ölkələrin turizm sektorlarını çeşidləndirməsini və fərqləndirməsini çətinləşdirir (http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf).

Azərbaycan iqtisadiyyatı üçün turizm sektoru qeyri neft-qaz sahələri arasında inkişaf potensialı ən yüksək sahələrdən hesab edilir. Bunun üçün ölkəmizdə lazımi təbii-coğrafi şərait olsa da, resurs asılılığı olan digər tipik ölkələr kimi ölkəmizdə də bu sahə uzun müddət diqqətdən kənarda qalmışdır. Milli iqtisadiyyatın xammal ixracı və resurs gəlirləri asılılığından azad edilməsi və istehsal sahələrinin diversifikasiyası məqsədilə ölkə səviyyəsində qəbul edilən qərarlar turizm sektorunun inkişafına təkan verdi. Hazırda turizm sənayesi ölkəmizin regional inkişafında müşahidə edilən disbalansın aradan qaldırılması üçün əsas həll yollarından biri kimi qiymətləndirilir.

Torpaqlarımızın işğaldan azad edilməsi turizm sektorunun inkişaf etdirilməsi üçün yeni imkanlar və fürsətlər yaratmış oldu. İlkin qiymətləndirmələr göstərir ki, həmin ərazilərin turizm imkanlarından, ümumiyyətlə, istifadə edilməmişdir. Bu səbəbdən, turizm sənayesi üçün yararlı sayıla biləcək infrastruktur yox dərəcəsindədir. Regionun turizm potensialından yararlanmaq məqsədilə ilk növbədə dünya turizm bazarının tələblərinə cavab verəcək şərait təmin edilməli və lazımi infrastrukturlarla təminat həyata keçirilməlidir. Hesab edilir ki, Qarabağ regionunda turizmdən əldə ediləcək potensial gəlirlər ölkənin ümumi turizm gəlirlərindən dəfələrlə artıq olacaqdır. Regionun ənənəvi turizm sahələrinin bərpa edilməsilə yanaşı, son dövrlərdə formalaşmış yeni turizm sahələrinin də inkişaf etdirilməsi planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərin təbii-iqlim, coğrafi və landaşft xarakteristikası burada dağ turizmi, ekoturizm, mənzərə turizmi, sağlamlıq turizmi, aqroturizm, termal fəaliyyətlər, trekking, botanika turizmi, dark turizm, mağara turizmi və digər formalarda turistik fəaliyyətlərə imkan verir.

Füzuli rayonu ərazisində ən qədim insan növlərinin yaşadığı güman edilən Azıx mağarası yerləşir ki, buranın təqribən Paleolit dövründən etibarən insanların məskunlaşdığı yerlərdən biri olduğu hesab edilir. Tarixi məkanlar həmişə insanların maraq dairəsində olmuşdur, bu səbəbdən həmin ərazinin mağara turizmi zonası kimi dünya miqyasında tanınan turizm bölgələrindən biri olma potensialı böyükdür.

Son dövrlərdə sürətlə inkişaf edən turizm sahələrindən biri də aqroturizmdir. Aqroturizmin işğaldan azad edilmiş ərazilərdə inkişaf imkanları olduqca genişdir. Bölgə əhalisinin özünəxas adət-ənənələri, günlük yaşam tərzləri və fəaliyyətləri turistlərin böyük marağına səbəb olur. Bu sahənin inkişafı gələcək dövrlərdə əhalinin sosial rifahına və milli yaşantılarının dünya miqyasında tanınmasına da şərait yaradacaqdır.

Xüsusilə, inkişaf etmiş ölkələrində rast gəlinən dark turizmin Qarabağ regionunda tətbiq edilməsi imkanları mövcuddur. Dark turizm yaxud da qaranlıq turizmi tragediya, soyqırımı, tarixi-faciəvi və sair yerlərə edilən turistik gəzintiləri, səyahətləri nəzərdə tutur. Bunlara Çernobıl şəhərini, Yaponiyada Hiroşima və Naqasakini, Şərqi Avropadakı ölüm düşərgələrini və sairi tipik misal olaraq göstərə bilərik. Bu yolla, həm xalqımızın başına gətirilən faciələri dünyaya daha praktik və təsirli formada çatdırmaq imkanımız olacaqdır.

Bölgənin endemik, az tapılan və nadir bitki və heyvan örtüyünə sahib olması burada botanika turizminin inkişafına şərait yaradır. Hazırda destinasiyada çəkiciliyi ən üst səvyyələrdə olan dağ turizmi Qarabağda ən gəlirli turizm fəaliyyəti növlərindən biri ola bilər. Yüksək dağlıq ərazilər, daima başı qarlı dağlar, yaylalar bu turizm növünün inkişaf imkanlarını genişləndirir.

İşğaldan azad edilmiş ərazilərin sağlamlıq üçün əhəmiyyətli mineral və termal sularla zəngin olması hamımıza məlumdur. Hələ işğaldan əvvəlki dövrdə bu ərazi bütün sovet respublikaları arasında sağlamlıq turizmi ilə məşhur idi. Erməni istilası zamanı təbii sərvətlərin turizm məqsədləri üçün istifadə edilməməsi və istismar xarakterli fəaliyyətlərin həyata keçirilməsi regionun infrastrukturuna ciddi ziyan vurmuşdur. Ancaq bu ehtiyyatların inkişaf potensialı olduqca yüksəkdir, buradan

hasil edilən mineral sular təkcə turistik məqsədlərlə deyil, habelə ixrac məqsədlərilə də brendləşmiş məhsul istehsalını təmin edə bilər.

Qarabağ zonasının mineral suları karbonlu-mineral sular və radonlu mineral sular qrupuna daxildir. Radonlu sulara Laçın və Kəlbəcər rayonları ərazisindən çıxan sular aid edilir, karbonlu-mineral sulara misal olaraq Şuşada Turşsu və Kəlbəcərdə İstisu mineral bulaqlarını göstərə bilərik. Kəlbəcər rayonunun mineral sularının kimyəvi tərkibi azotlu, kükürdlü və sulfidli olmaqla, 37-40$^0$C temperaturla qaynar sular qrupuna aid edilir. Laçın və Şuşanın mineral suları isə kimyəvi tərkibinə görə karbon qazlı və hidrokarbonatlıdır. 7-12$^0$C arasında dəyişən temperaturuna görə bu sular sərin mineral sular kateqoriyasına daxildir. Termal sulara gəldikdə isə Şuşa, Laçın və Kəlbəcər ərazisindən çıxan isti bulaqların temperaturu 60-100$^0$ C arasında dəyişir. Kimyəvi tərkibi müxtəlif olan bu sular Azərbaycanın ümumi mineral sularının 1/3-ə qədərini təşkil etməkdədir. Təkcə Tərtər çayının Kəlbəcər rayonu ərazisinə düşən hövzəsində dörd yüzdən artıq mineral su mövcuddur. Laçın və Kəlbəcər rayonlarında mineral suların hesablanmış ümumi ehtiyyatı 7390 m$^3$/gün olduğu müəyyən edilmişdir (https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda__hesabat_dta.pdf).

Bağırsaq mineral su mənbəyi Kəlbəcər rayonunun eyni adlı kəndində yerləşir və suyun mənbədə hesablanan temperaturu 15$^0$C-dir. Ürək-damar, əsəb sistemi xəstəlikləri, ginekoloji xəstəliklərin və sair müalicəsində effektivdir. Həmçinin müalicəvi süfrə suyu kimi istifadəsi də mümkündür. Dünyadakı analoqu olan Brambax mineral suyu hazırda kurort-müalicə məqsədləriylə və SPA mərkəzlərində istifadə edilir (Cədvəl 4).

Laçın rayonu ərazisində Minkənd kəndi yaxınlığında yerləşən eyni adlı mineral su mənbəyi öd yolları, dəri xəstəlikləri, dayaq-hərəkət orqanları üzrə müvafiq xəstəliklərdə müalicəvi əhəmiyyətə malik olmaqla, işğaldan əvəlki dövrdə bu məqsədlə istifadə edilmişdir. Dünyadakı analoqu Rusiyanın Jeleznavodsk mineral suyu hesab edilir ki, bu müalicəvi sudan kurort-sağlamlıq mərkəzlərində, habelə SPA mərkəzlərində istifadə olunmaqdadır.

**Cədvəl 4: Qarabağda debiti yüksək olan mineral sular və dünyadakı analoqları (2021)**

| Mineral mənbənin adı | Debiti (min l/gün) | Analoqu | Ölkə |
|---|---|---|---|
| Bağırsaq | 200 | Brambax | Almaniya(Saksoniya) |
| Qoturlu | 70 | Nazran Pyatiqorsk | Rusiya |
| Qarasu | 700 | Pyatiqorsk,Maltinks | Rusiya |
| Mozçay | 150 | Saqveri,Lastoçkinsk | Gürcüstan |
| Yuxarı və Aşağı İstisu | 3200 | Karlovı Varı, Jeleznavodsk | Çexiya, Rusiya |
| Tutqun | 600 | Karlovı Varı, Jeleznavodsk | Çexiya, Rusiya |
| Minkənd | 430 | Karlovı Varı, Jeleznavodsk | Çexiya, Rusiya |
| Şırlan | 150 | Nazran | Rusiya |
| Turşsu | 300 | Nazran | Rusiya |

**Mənbə:**https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda__hesabat_dta.pdf (2021).

Kəlbəcər rayonu Tutquncay dərəsində, Başıbel kəndi yaxınlığında yerləşən Qoturlu mineral suyunun mənbədəki temperaturu $18^0$C olmaqla, dəri və mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə imkanları var. Alçalı kəndi yaxınlığında yerləşən Qarasu mineral mənbəyi də həmçinin mədə-bağırsaq xəstəliklərində effektiv təsirə malikdir. Bu sudan müalicəvi süfrə suyu kimi də istifadə edilməsi mümkündür. Kəlbəcər rayonu ərazisində yerləşən, hələ ötən əsrdən dünya miqyasında tanınan Yuxarı və Aşağı İstisu mineral bulaqları kimyəvi tərkibinə görə olduqca zəngindir və yalnız dünyadakı analoqu hesab edilən Karlovı Varı mineral suyundan geri qalır. Suyun mənbədəki orta temperaturu $61^0$C olmaqla oynaq, dəri xəstəliklərinin, dayaq-hərəkət orqanlarının, öd yollarının, mədə-bağırsaq xəstəliklərinin müalicəsində effektiv təsirə malikdir. Suların süfrə suyu kimi də istifadə edilə bilməsi onların qablaşdırılaraq dünya miqyasında Azərbaycan brendinə çevrilməsinə imkan verə bilər.

Şuşa şəhəri ərazisində yerləşən Turşsu və Şırlan mineral suları müalicəvi süfrə suyu olmaqla yanaşı, bir sıra xəstəliklərin müalicəsində effektiv təsirə də malikdir.

Hər iki mineral mənbənin analoqu Rusiyanın Nazran mineral suyu hesab edilir (https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda_hesabat_dta.pdf).

Şuşa şəhərinin tarixi mədəni irsi nümunələri, relyefi, coğrafi şəraiti və sair burada birdən çox turizm fəaliyyət növünün inkişafına imkan verir. Dünya Sağlamlıq Təşkilatı tərəfindən müəyyən edilən üç tip sağlamlıq turizm növünün Şuşada həyata keçirilməsi mümkündür:

- Reabilitasiya və bərpa turizmi – xüsusi baxım növləri təklif edən və sağlamlığın bərpasına xidmət edən müvafiq şəraitə sahib müəssisələr
- Tibbi turizm forması – müalicə məqsədilə səyahət edən insanların hərəkətini nəzərdə tutur. Adətən, insanlar yerli tibbi xidmətlərdən və onların qiymətlərindən razı qalmadıqda, yaxud tələb edilən müalicə forması yerli müəssisələr tərəfindən təmin edilə bilmədikdə, onlar müalicə və tibbi xidmətlərdən yararlanmaq məqsədilə digər ölkələrə səfər edirlər.
- Sağlamlığın yaxşılaşdırılması – palçıq vannaları, spa-welness, hidroterapiya, fitness kimi insanları günlük yaşamın neqativlərindən uzaq tutacaq turizm fəaliyyəti növlərini ehtiva edir.

Şuşanın dağlı relyefi müasir turizm formalarından olan snowboard üçün əlverişlidir. Sıldırım qayalıqlar və yüksəkliklər "bungee jumping" və alpinizm üçün, mürəkkəb relyef üzərindən axan çaylar isə rafting üçün ideal imkan yaradır. Şuşa-Turşsu rekreasiya turizm zonası daxilində Şırlan, Zamanpəyəsi, Turşsu, Daşaltı və İsabulağı yerləşir. Tərkibi dəmirlə zəngin olan bu sular anemiya-qan azlığı xəstəliyinin müalicəsində təsirlidir. Kimyəvi tərkibi mikroelementlərlə zəngin olmaqla yanaşı, ümumi təsnifatda maqneziumlu-karbon qazlı-natriumlu-hidrokarbonatlı sular qrupuna daxildir.

İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı dövlət və özəl sektorun əməkdaşlığından birbaşa asılıdır. İlkin mərhələdə ərazinin infrastrukturlarla təminatı dövlət hesabına həyata keçirilsə də, aydındır ki, əsaslı yenidənqurma və müxtəlif fəaliyyət növləri üzrə istehsalın həyata keçirilməsi böyük həcmdə yerli və xarici investisiyaların olmasını tələb edir. Bu məqsədlə, regionun investisiya

cəlbediciliyini artırmaq mühümdür. Müəyyən fiskal və monetar alətlərdən istifadə etməklə, xüsusilə, kiçik və orta sahibkarları regiondakı yenidənqurma proqramına daxil etmək təkcə turizm deyil, istehsalın digər bütün sferalarında işin səmərəliliyini artıracaqdır.

# III FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1. Qarabağın iqtisadi yenidənqurmasında yerli və beynəlxalq təcrübədən istifadə imkanlarının təhlili

Tarixi torpaqlarımızın işğalı yeni müstəqillik əldə etmiş və yarım əsrdən uzun müddətdə davam edən əsarət zəncirlərini qırmış Azərbaycan Respublikası üçün güclü zərbə olsa da, çətin iqtisadi və siyasi vəziyyətə rəğmən ölkəmiz sınaqlardan üzüağ çıxmış və qısa zaman ərzində özü üçün yeni bir iqtisadi inkişaf mərhələsini başlada bilmişdir. Sözügedən dövrün iqtisadi mənzərəsində böhran, infilyasiya, qıtlıq, müharibə və yoxsulluq aydın müşahidə edilməkdədir. Lakin düzgün qurulmuş iqtisadi siyasət, məqsədyönlü islahatlar və dövlət proqramları böhranlı vəziyyətin qısa müddət ərzində aradan qaldırılmasını təmin etdi. Digər ölkələrdən yardım dilənən zəif ölkələrin əksinə Azərbaycan resursların səmərəli idarəedilməsi hesabına makro ölçülü iqtisadiyyata sahib ölkələrlə belə iqtisadi əməkdaşlıq münasibətlərinə nail oldu. Bu səbəbdən, işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial yenidənqurmasında örnək qəbul ediləcək başlıca təcrübə məhz ölkəmizin, habelə Ümumilli Lider Heydər Əliyevin praktik fəaliyyət yolu olmalıdır.

Müəyyən tədqiqatların aparılmasında müqayisəli təhlil metodundan istifadə mövcud vəziyyətin daha dolğun araştırılmasına şərait yaradır. Tədqiq edilən iqtisadi hadisə və proseslərin beynəlxalq arenada müvafiq formalarının araşdırılması adekvat həll yollarının irəli sürülməsini asanlaşdırır. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası və yenidənqurulmasında dünya təcrübəsindən və onların müsbət nəticələrindən istifadə məqsədəuyğun xarakter daşıyır.

Bildiyimiz kimi işğaldan azad edilmiş ərazilərdə yaradılan yeni iqtisadi vahidlər həm də ərazinin yenidənqurması üçün strateji əhəmiyyətə malikdir. Otuz ilə yaxın uzun müddətli dövr ərzində ərazidə geniş miqyaslı istehsal fəaliyyətinin

və məskunlaşmanın olmaması ən zəruri infrastrukturların yoxluğunun və istifadəyə yararsız halda olduğunun aydın izahıdır. Bu səbəbdən, yenidənqurma tədbirləri istehsal və digər iqtisadi fəaliyyətlərə imkan verəcək minimum ehtiyacların təmin edilməsi ilə başlanmışdır. Müstəqillik illəri ərzində toplanmış təcrübələrin, habelə ayrı-ayrı regionların inkişafına yönəldilmiş inkişaf və yenidənqurma proqramlarının adekvat sahələrdə tətbiqi azad edilmiş ərazilərdə iqtisadi inkişafın təmin edilməsində mühüm əhəmiyyətə malikdir.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpa işlərinə 2021-ci ilin əvvəlində bu məqsədlə dövlət büdcəsindən 2.2 milyard dollar məbləğində vəsaitin ayrılması ilə başlanmışdır. Post-konflikt dövründə yenidənqurma ilkin infrastrukturların qurulmasını ilkin hədəf olaraq təyin etdiyindən, bu proses iki mərhələdə həyata keçirilməkdədir. İlkin mərhələdə ərazidə zəruri baza strukturlarının yaradılması ilə kommunal xidmətlərlə fasiləsiz təminatın yaradılması, ikinci mərhələ isə region iqtisadiyyatına daxili və xarici investisiyaların cəlb edilməsi məqsədilə əlverişli biznes mühitinin yaradılmasını nəzərdə tutur. Qarabağın iqtisadi inkişafının strateji istiqamətlərindən biri işğaldan azad edilmiş ərazilərin müasir inkişaf modellərinə uyğun əsaslı yenidənqurmasını təmin etməkdir. Bu ərazilərdə tətbiq edilən yeni inkişaf və bərpa modelləri sonrakı dövrlərdə ölkənin digər ərazilərinin yenidənqurmasında da tətbiq edilə bilər.
Ümumilikdə, yenidənqurma və bərpa proseslərinin həyata keçirilməsi ilə bağlı müəyyən edilmiş məqsədləri aşağıdakı kimi sıralamaq olar:

- Müasir standartlara uyğun inkişaf modelinin yaradılması
- Bərpa prosesinin qənaət və yüksək keyfiyyətin təmini prinsipləri əsasında həyata keçirilməsi
- İşğaldan azad edilmiş ərazilərdə alternativ enerji mənbələrindən səmərəli istifadənin təşkili və regionun “Yaşıl Enerji” zonası şəklində yenidənqurulması
- Beynəlxalq səviyyəli texnoloji şirkətlərin yenidənqurma və bərpa prosesində iştirakının təşviq edilməsi

- İşğaldan azad olunmuş ərazilərin yüksək texnika və texnologiyalarla təchiz edilmiş, müasir innovativ standartlara cavab verən iqtisadi məkana çevrilməsi

Bərpa və yenidənqurma prosesinin mərkəzləşdirilmiş, əsaslı və səmərəli təşkili məqsədilə Azərbaycan hökuməti tərəfindən lazımi addımlar atılmış, müharibənin bitməsindən dərhal sonra İdarələrarası Mərkəz və Əlaqələndirmə Qərargahı yaradılmışdır. Yenidənqurmanın strateji fəaliyyət planına müvafiq qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakı işçi qrupları təsis edilmişdir:

1. Humanitar məsələlər və fövqəladə hallarla bağlı işçi qrup
2. Siyasi və hərbi məsələlər üzrə
3. Logistika və nəqliyyat məsələləri üçün işçi qrup
4. Hüquqi məsələlərin həlli üzrə
5. İqtisadi məsələlər üzrə
6. QHT-lərlə əlaqələr və beynəlxalq təşkilatlarla iş üzrə
7. Media ilə informasiya və iş üzrə
8. Ekoloji məsələlər üzrə
9. Yüksək texnologiyalar və rabitə məsələləri üzrə
10. Enerji təminatı məsələləri üçün
11. Şəhərsalma məsələləri üzrə və sair işçi qruplar.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində ərzaq məhsulları ilə davamlı və dayanıqlı təminatla yanaşı, enerji təhlükəsizliyinə nail olunması da mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərdə məhv edilmiş enerji infrastrukturlarının əsaslı yenidənqurması və ərazinin enerji ilə tam təminatı strateji inkişaf istiqamətlərindən biri kimi çıxış edir. Qarabağda enerji sisteminin yaradılması ilə enerjinin fasiləsizliyinə nail olmaq və ölkənin ümumi enerji sisteminə regionun adaptasiyasını sürətləndirmək mümkündür. İlkin olaraq, “Azərişıq” və “Azərenerji” tərəfindən iki elektrik xətti Şuşa şəhərində çəkilmişdir, eyni zamanda bir sıra dövlət əhəmiyyətli binaların enerji təchizatının təmin edilməsi məqsədilə “Azərişıq Qarabağda” layihəsi başladılmışdır.

Qarabağın alternativ enerji resursları arasında su enerjisindən istifadə imkanları olduqca genişdir. Müharibənin bitməsilə azad edilmiş ərazilərdə qısa zamanda SES-lərin yenidənqurmasına başlanmışdır. 14 fevral 2021-ci il tarixində açılışı edilən və istifadəyə verilən "Güləbird" SES-i Laçın rayonu ərazisində yerləşməklə, yeddi mindən çox insanın enerji ilə təminatına xidmət etməkdədir. Həmçinin bu stansiya sayəsində Qubadlı və Laçın rayonları ərazisində yerləşən bir sıra infrastrukturların enerji təchizatı da təmin olunacaqdır.
İşğaldan azad edilmiş ərazilərdə enerji yenidənqurması müasir enerji bazarının tələblərinə müvafiq gəldiyindən, ekoloji cəhətdən təmiz və bərpaoluna bilən enerjidən istifadə məsələləri aktualdır. Burada qurulacaq ağıllı kənd və şəhər layihələrinin mövcudluğu da alternativ enerji mənbələrindən istifadəni zəruri edir.

FAO tərəfindən Əfqanıstan və İraqda post-müharibə dövründə yenidənqurma və bərpa tədbirlərinin araşdırılıb öyrənilməsi, tətbiq edilən effektiv üsulların qiymətləndirilməsi onlardan Qarabağın restrukturuzasiyasında istifadə imkanlarını təmin edə bilər. Belə ki, bu ərazilərdə müharibədən dəymiş zərərin aradan qaldırılması ilə yanaşı regionun iqtisadi inkişafın təmin edəcək müvafiq plan-proqramların tətbiqatı həyata keçirilmişdir:

- Kənd təsərrüfatı sahəsində irihəcmli layihələrin hazırlanması
- Aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi
- Deqradasiyaya uğramış və sıradan çıxmış torpaqların bərpası
- Su resursların səmərəli istifadənin təşkili
- Kiçik və orta ölçülü fermer təsərrüfatlarında məhsuldarlığın maksimallaşdırılması

Sadalanan istiqamətlər üzrə beynəlxalq təcrübələrin araşdırılması yenidənqurma zamanı alternativ həll yolları təklif edilməsi imkanını artıracaqdır. Regionun başlıca və ənənəvi iqtisadi fəaliyyət növü kənd təsərrüfatı olduğundan, yenidənqurma zamanı yerləşdiriləcək əhalinin məşğuliyyətini və ərazinin zəruri istehlak mallarına olan tələbatının ödənilməsini nəzərə alaraq bu sahənin digərlərinə nisbətdə öncəlik təşkil etdiyini deyə bilərik. Aqrar sahənin yenidənqurmasında Türkiyə modelinin müvafiq istiqamətlərinin tətbiqi effektiv ola

bilər. Məsələn, azad olunmuş ərazilər üzrə xüsusi inkişaf agentliklərinin yaradılması hər ərazinin müəyyən məhsullar üzrə ixtisaslaşmasına şərait yaradacaq. İstənilən modelin tətbiqi zamanı aşağıda sadalanan istiqamətlərin gözlənilməsi və həyata keçiriləcək tədbirlərin bu istiqamətlərə uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir:

- Spesifik xarakter daşıyan intensiv təsərrüfatçılıq üsullarının düzgün qiymətləndirilməsi və digər rayonlarda geniş ərazilər üzrə tətbiq edilməsi
- Aqrar sığortanın tətbiqi və müasir tələblərə uyğun təşkili
- Ərazilər üzrə risk cədvəlinin işlənib hazırlanması (bu cədvəl ərazilərin münaqişə ocaqlarına yaxınlığına görə tərtib edilməli və onların təsərrüfatçılıq üçün yararlılıq səviyyəsi müəyyən edilməlidir)
- Kənd təsərrüfatı sahələrini də əhatə edən Xüsusi İnkişaf Fondunun təşkil edilməsi
- Ərazinin investisiya cəlbediciliyini artırmaq məqsədilə təbirlər planının işlənib hazırlanması
- Beynəlxalq donorlar hesabına, xarici şirkətlər tərəfindən həyata keçirilən layihələrin ölkə strategiyasına uyğunlaşdırılması
- Ailə başçısını itirmiş və həssas əhali qrupları üçün inkluziv layihələrin hazırlanması
- İnvestisiya qoyuluşlarının və sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə əlverişli biznes mühitinin formalaşdırılması
- Orqanik kənd təsərrüfatının inkişafının dəstəklənməsi və sair.

Dünya praktikasının öyrənilməsi və beynəlxalq təcrübədən istifadə ölkənin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Bu məqsədlə, ölkəmiz Qarabağın mövcud iqtisadi vəziyyətinə diqqət çəkmək, işğaldan azad edilmiş ərazilərin iqtisadi yenidənqurmasına töhvə verəcək innovativ həll yollarını, investisiya təkliflərini və unikal təcrübələri bir platforma üzərindən nümayiş etdirmək üçün “Rebuild Karabakh” adlı sərgini təşkil etmişdir. Sərginin təşkilatçılığı “Caspian Event Organisers”-ə  məxsusdur, Qarabağ Dirçəliş Fondu,

İxracın və İnvestisiyaların Təşviqi Fondu və KOBİA-nın dəstəyi hesabına gerçəkləşmişdir. Sərginin təşkilindəki başlıca məqsədlərdən biri də özəl sektorla dövlət qurumları arasında ünsiyyət və əlaqələr platforması yaratmaqdır. “Rebuild Karabakh” sərgisi daxilində aşağıdakı məsələlər üzrə tədbirlərin keçirilməsi və layihələrin təqdimatı nəzərdə tutulmuşdur:

- Qarabağın turizm və enerji potensialı
- Regionun bərpası ilə bağlı beynəlxalq və yerli mütəxəssislərin təcrübə mübadiləsi
- Qazi və şəhid ailələrini əhatə edən kiçik biznes proqramlarının müzakirəsi

Müharibədən sonrakı dövrdə ərazilərin yenidənqurma və bərpasının əsaslı təmini və inkişafla xarakterizə edilməsi iqtisadiyyatın investisiya cəlbediciliyinin hansı səviyyədə olması ilə birbaşa əlaqədardır. Lakin dünya praktikasından məlumdur ki, post-konflikt dövrlərdə ərazilərin investisiya cəlbetmə imkanları aşağı səviyyələrdə olur. Bunun başlıca səbəbi investorların lazımi informasiyalarla tam təmin olunmaması, habelə müharibədən yeni çıxmış ərazilərin iqtisadi potensialına dair dəqiq informasiyanın olmamasıdır. İnvestisiya qoyuluşları prosesində yatırılan investisiyaların həcmi ilə məlumat mövcudluğu dərəcəsi düz mütənasib asılılıqdadır. Yəni ərazinin mövcud potensialı haqqında məlumatlar nə qədər dolğun və geniş həcmli olarsa, ərazinin investisiya cəlbediciliyi də o qədər yüksək olar. Dünya praktikasında post-konflikt dövrdə ərazilərə investisiya qoyuluşları üçün aşağıdakı motivlər fərqləndirilir:

- “Sosial status” motivi – maliyyə yatırımları nəticəsində investorun hansısa sosial status qazanmasını nəzərdə tutur. Bu eyni zamanda stimullaşdırıcı faktor kimi çıxış edir.
- “Maliyyə gəliri motivi” – investisiya yatırımlarının uzunmüddətli dövrdə gəlirliliyini nəzərdə tutur.
- “Emosional” motiv – adətən etnik konfliktlər halında cəlb edilən investisiyalardır. Belə olan halda, investor öz ölkəsinə və milli dəyərlərinə töhvə verməklə əldə edəcəyi həzz üçün investisiya yatırımları etməkdə maraqlı olur.

Göründüyü kimi, investisiya yatırımlarının edilməsi heç də həmişə gəlir faktoru ilə məhdudlaşmır. Emosional motivlərə istinad edən investisiya layihələrinin təşkili məqsədilə dövlət səviyyəsində müvafiq işlərin görülməsi məqsədəuyğundur. Beynəlxalq təcrübədə diaspora investisiya qoyuluşu şəklində adlandırılan bu istiqamət Çili, Ekvador kimi ölkələrdə müvaffəqiyyətlə tətbiq edilməkdədir. İşğaldan azad edilmiş ərazilərdə post-konflik dövrünün ilkin mərhələsində informasiya qıtlığı olduğundan beynəlxalq səviyyəli şirkətlərin investisiyalarının cəlb edilməsi olduqca mürəkkəbdir. Bu səbəbdən, diaspora nümayəndəliklərinin mövcud olduğu ölkələrdə iş adamlarına informasiyanın dolğun şəkildə çatdırması investisiyaların cəlb edilməsini stimullaşdıra bilər. Təbii ki, iş adamları dediyimiz zaman ölkəmizlə bu və ya digər formada əlaqələrə və mənəvi bağlara sahib şəxslər nəzərdə tutulur.

Müharibədən sonrakı dövrdə ərazidə texnologiya və innovasiyalar sahəsinə cəlb edilməsi planlaşdırılan investisiyaları kraudfandinq və ya vençur kapitalı ilə artırmaq mümkündür. Yaponiya, Tayvan və Cənub-şərqi Asiyanın digər yeni sənaye ölkələrində tətbiq edilən bu metod olduqca müvəffəqiyyətli nəticələr vermişdir. İlkin mərhələdə irihəcmi yatırımların təşkili çətin olduğundan kiçik və orta sahibkarlıq səviyyəsində yatırımların edilməsi məqsəduyğundur. Sonrakı dövrdə vençur kapitalı hesabına iri investisiya qoyuluşları da təşviq edilə bilər.

Dünya praktikasına nəzər saldıqda post-müharibə dövrlərində və digər yenidənqurma mərhələlərində hökümətlərə dəstək olan və müəyyən plan-proqram əsasında bərpa və yenidənqurma işlərində yaxından iştirak edən quruluşlardan biri Dünya Bankıdır. Yeni yaradılan zaman Yenidənqurma və İnkişaf Bankı olaraq adlandırılması onun fəaliyyətinin başlıca məqsədinin nə olduğunu aydın ifadə edir. Xüsusilə, Yaxın Şərqdə və Şərqi Avropada ölkələrin müharibədən və təbii fəlakətlərdən sonra bərpa və yenidənqurma işlərində fəal dəstəyini göstərmişdir. Ölkəmiz 1992-ci ildən etibarən Dünya Bankının üzvüdür və müxtəlif istiqamətli əllidən artıq layihənin həyata keçirilməsi üçün Dünya Bankından toplam 3,5 milyard dollar həcmində kredit alınmışdır. Bu səbəbdən Qarabağın iqtisadi

yenidənqurmasında Dünya Bankının mövcud təcrübəsindən istifadə effektiv nəticə əldə etməyə imkan verəcəkdir.

İrihəcmli yenidənqurma layihələrinin həyata keçirilməsi və regionun iqtisadi gücünün və istehsal fəaliyyətinin bərpası böyük həcmdə maliyyə vəsaiti tələb edir. Qarabağın investisiya cəlbediciliyinin artırılması və regionda sahibkarlıq subyektləri üçün əlverişli iqtisadi biznes mühitinin yaradılması mühüm əhəmiyyət kəsb edir. İqtisadi subyektlər üçün maliyyə resurslarına çıxışın təmin edilməsində bir sıra alternativ yollar təyin edilə bilər. Dövlətin həyata keçirdiyi fiskal siyasət və prosesə müsbət istiqamətdə təsir edən qanunlar sektora biznes yatırımlarını stimullaşdıra bilər. Digər tərəfdən dünya praktikasına baxdığımızda alternativ həll yollarından biri olaraq islam maliyyə institularından istifadənin tədricən genişləndiyinin şahidi oluruq. Regionun bərpası üçün nəzərdə tutulan iqtisadi inkişaf modeli çərçivəsində azad edilmiş ərazilərdə modelin prinsipləri əsasında alternativ maliyyə kanallarından istifadə sahibkarlıq fəaliyyətinin genişlənməsinə şərait yaradacaqdır. Ötən əsrin 60-cı illərindən başlayaraq fəaliyyət göstərən islam maliyyə institutları hazırda 92-dən çox ölkədə alternativ maliyyə kanallarından biri kimi çıxış edir. Dünya ölkələri üzrə üç yüzdən artıq islam maliyyə institutu var ki, bunların illik artım tempi 12-15% təşkil edir, aktivlərinin ümumi həcmi is 3,2 trilyon dollardır. İslam maliyyə institularının 2008-2010-cu illərdə baş verən maliyyə böhranlarından ən az zərərlə çıxması dünya miqyasında bu sektora olan marağı artırdı. Qarabağda fəaliyyət göstərəcək sahibkarlıq subyektləri üçün yatırılan investisiyaların islami maliyyə üsulları ilə realizasiyası ənənəvi maliyyə üsullarının yüksək xərclərinin sekvestrasiyasına şərait yaradacaqdır. Bu istiqamətdə Körfəz ölkələrinin və Malayziyanın təcrübəsinin araşdırılması və Qarabağın yenidənqruma proqramına müvafiq investisiya və infrastruktur modellərinin inkişaf etdirilməsi məqsədəuyğundur. Həmçinin Türkiyə Cumhuriyyətinin islam bankçılığı və maliyyə istitutları istiqamətli qırx illik təcrübəsindən də yararlanmaq olar. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların “sukuk” istiqrazlarından istifadə imkanları genişdir, lakin biznes subyektlərinin bu haqda məlumatlılığı aşağı səviyyədədir. Sukuk istiqrazları

Goldman Sachs və General Electric transmilli şirkətlərinin tərəfindən buraxılır. Bu və digər maliyyə alternativləri barədə sahibkarların maarifləndirilməsi mütləqdir. Qloballaşan dünyamızda sürətlə inkişaf edən və təkcə şərqdə deyil, qərb ölkələrində də halal istehsal və halal qida anlayışları dünya bazarında məhsullara olan tələbin xarakterini müəyyən mənada dəyişmişdir. Dünyaca məşhur və milyonlarla dollar dövriyyəsi olan markaların halal qida sertifikatlarından istifadəsi və bu formada brendləşməsi mövzunun aktuallığını sübut edir. Sözügedən transmilli şirkətlərə Banvit-Türkiye, KFC, Baskin-Robbins, Metro, Nestle, Kraft, Cargill, Midamar (ABŞ), Alibaba (Çin), McDonald`s, Gerber, Tesco (UK) və sair misal göstərilə bilər. Bildiyimiz kimi, Qarabağ regionun iqtisadi şəraiti ilk növbədə istehlak mallarının istehsalı üçün əlverişli imkanlara sahibdir. Regionda inkişaf potensialı yüksək qiymətləndirilən iki sahə qida və moda sənayesidir. Əvvəlki fəsillərdə biz regionda istehsal edilən bir sıra qida məhsulları üzrə hələ ötən əsrdə ölkənin tələbatının ödənildiyini qeyd etmişdik. Bu isə o deməkdir ki, müasir şərtlər daxilində istehsalın səmərəli təşkili qida sənayesində ixrac potensialı yüksək olan məhsul istehsalına imkan verə bilər. Qarabağda yaradılacaq "halal" brendi qida sənayesinin mühüm seqmentlərindən biri olacaqdır. Hazırda dünya bazarında bu brend təmizlik, saflıq, keyfiyyət və təhlükəsizlik standartı kimi qəbul edildiyindən bu istiqamət sahibkarlar üçün rəqabət üstünlüyü təmin etməkdədir. Həmçinin halal sənaye istehsalın diversifikasiyasını stimullaşdıracaqdır. İqtisadi fəaliyyətin müxtəlif istiqamətləri üzrə müasir yanaşmaların tətbiqi xarici təcrübələrin düzgün qiymətləndirilməsi və ölkəmizdə tətbiq imkanlarının öyrənilməsi ilə mümkündür. Məsələn, tekstil sənayesi üzrə dünya bazarında yaranan yeni trendlərdən biri "konservator və islam" yanaşmasıdır. Hansı ki, Türkiyə, İtaliya, Fransa və Çin kimi ölkələrin moda sənayesi müəyyən mənada bu yanaşmaya tabe edilmişdir. Həmin ölkələrin tekstil sənayesindəki praktikasının öyrənilməsi və tətbiqi Qarabağda yüngül sənayenin inkişafında yeni mərhələnin başlanğıcı deməkdir. Digər tərəfdən islam maliyyə alətlərindən regionun bərpa və yenidənqurmasında istifadə edilməsi BƏƏ, Qətər, Küveyt kimi varlı ərəb ölkələrinin, habelə

Malayziya, İran və Türkiyə kimi ölkələrin də investisiyalarının regiona cəlb edilməsini təmin edə bilər.

Ölkəmizdə halal sənaye və istehsalla bağlı təcrübənin olmaması və sektor üzrə ixtisaslı kadrların məhdudluğu başlıca problemlərdəndir. Bu səbəbdən biznes subyektlərinin sözügedən istiqamət üzrə maarifləndirilməsi və ixtisaslı kadrların hazırlanması mühüm əhəmiyyət kəsb edir. Sahə üzrə uzun müddətli təcrübəyə sahib ölkələr və müvafiq qurumlarla (İslam İnkişaf Bankı, özəl tərəfdaşlıqlar, müxtəlf səviyyəli islam fondları) əməkdaşlıq əlaqələrinin qurulması lazımdır. Bu strukturlar fiziki infrastrukturun və hüquqi mühitin halal sənayenin tələblərinə uyğunlaşdırılmasını təmin edəcəkdir. Qısa zaman ərzində milli iqtisadiyyatda islam maliyyə istitutlarının alətlərindən istifadə təmin edilməlidir. Çünki istər işğaldan azad edilmiş ərazilərdə, istərsə iqtisadi faəliyyətin digər formalarında fəaliyyət göstərən biznes subyektləri "sukuk" istiqrazlarından, "mudaraba" və "muşaraka" mexanizmlərindən və digər alternativ maliyyə resurslarından istifadə edə bilmirlər. Bu isə regionda sahibkarlığın inkişafını ləgitməklə yanaşı, investisiya cəlbediciliyini də azaltmış olur.

Bütün bularla yanaşı, ölkədə alternativ maliyyə resurslarından istifadə imkanlarını genişləndirəcək strateji yol xəritələri və ya müvafiq inkişaf proqramları işlənib hazırlana bilər. Proqramlar daxilində iqtisadi təhsil, alternativ maliyyə mənbələrindən istifadə, qanunvericilik məsələləri əhatə olunmalıdır. Yeni maliyyə kanallarından biri kimi çıxış edən və hazırda dünya iqtisadiyyatında əhəmiyyətli rolu olan islam maliyyə institularının imkanlarından istifadəni təmin etmək məqsədilə aşağıdakı istiqamətlər üzrə işlərin görülməsi məqsədəuyğun olar:

1. Digər islam ölkələri ilə əlaqələrin genişləndirilməsi və bu sahədə işçi qrupunun təsis edilməsi
2. Qarabağın bərpası, yenidənqurması və inkişafı kontekstində alternativ maliyyə modelinin perspektivlərinin və imkanlarının araşdırılması
3. Qarabağ regionunda biznes fəaliyyətinin GZİT təhlilinin aparılması
4. Həyata keçirilməsi zamanı effektiv nəticələr təmin edəcək islam maliyyələşdirmə layihələrinin hazırlanması və seçilməsi

5. Biznes subyektlərinin islam maliyyəsi haqqında maariflәndirilməsi və savadlılığının artırılması və sair.

Qarabağda yenidənqurma prosesi daxilində ağıllı şəhərlərin və kəndlərin qurulması da ölkəmiz üçün yeni təcrübədir. Son dövrlərdə sürətlə inkişaf edən yaşayış yerlərinin rəqəmsallaşdırılması modeli Azərbaycanda ilk dəfə işğaldan azad edilmiş ərazilərdə tətbiq ediləcəkdir. 2015-ci ildən etibarən BMT tərəfindən dayanıqlı və ağıllı şəhərlərin göstəriciləri müəyyən edilmişdir. Belə ki, şəhər və kəndlərin rəqəmsallaşdırılması təkcə innovasiyaların tətbiqi cəhətdən deyil, eyni zamanda əhalinin həyat şəraitinin yaxşılaşdırılması, vaxt itkisinin aradan qaldırılması, xidmətlərin daha rəqabətqabiliyyətli və effektiv olması, habelə əhalinin mədəni, sosial və iqtisadi tələblərinin ödənilməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir (https://science.gov.az/az/news/open/17052). BMT-nin müəyyən etdiyi qaydalara əsasən bu tip məskunlaşma yerlərində ağıllı şəhər sistemi bütün fəaliyyət növlərinə tətbiq edilməlidir. Sistemin tətbiqində üç əsas istiqamət nəzərə çarpır:

1. İqtisadiyyat – innovasiya, İKT, məşğulluq, fiziki infrastrukturlar, istehsal, ticarət və digər iqtisadi koteqroiyaları özündə ehtiva edir.
2. Cəmiyyət və mədəniyyət- səhiyyə, təhsil, təhlükəsizlik, sosial münasibətlər, mənzil, mədəni münasibətlər və sair.
3. Ətraf mühit – su təchizatı, biomüxtəliflik, havanın tərkibi, energetika, ətraf mühitin keyfiyyəti və sair.

Beynəlxalq praktikada "ağıllı" sistemlərdən istifadə düşündüyümüz kimi yeni mövzu deyil. Şanxay, Pekin, Paris, Dubay, Moskva tipli iri aqlomerasiyalarda ağıllı parkinqlərdən, videonəzarət və işıqlandırma mexanizmlərindən istifadə geniş yayılmışdır. Belə ölkələrdə şəhərin tullantılardan təmizlənməsi zamanı da ağıllı mexanizmlərin tətbiqi həyata keçirilir. Ağıllı kənd və şəhərlərin qurulması regionun müasir dünyanın tələblərinə cavab verəcək potensialda inkişafına imkan verəcək. Həmçinin bu mexanizmlərin tətbiqi aqroturizm, kənd turizmi və sair əlaqəli sahələrdə canlanma yarada bilər.

Ağıllı şəhərlər, eyni zamanda, gəlirli biznes sahəsi hesab edilir. Yaxın gələcəkdə onun dünya bazarı üçün dəyərinin artacağı da istisna edilmir. İqtisadçıların proqnozlarına görə 2025-ci ilədək ağıllı şəhərlərin və kəndlərin texnologiyalar bazarının dəyəri təxminən 330 milyard dollara yaxın bir göstəriciyə çatacaqdır. Onun yaratdığı biznes imkanları ilə əldə ediləcək mənfəətlilik 2,5 milyard dollara qədər artacaqdır. "McKinsey Global İnstitute" proqnozlarına əsasən, bu fakt ayrı-ayrı ölkələrin ümumi daxili məhsulunun həcmində 20-35% artımla öz təsirini göstərəcək (https://fed.az/az/aqrar/azerbaycanda-agilli-kend-nece-olacaq-detallar-ekskluziv-40732).

Ağıllı şəhər və kənd modellərinin tətbiqindən əldə edilən nəticələrə dair bir neçə nümunə: Bostonda rəqəmsal texnologiyalar hesabına yollarda mövcud çökəkliklər təyin edilmiş və bir il ərzində onların sayı iki dəfəyə qədər azaldılmışdır, Sinqapurda şəhərin ağıllı sistemlər hesabına işqılandırılması enerji sərfiyyatına 40%-dək qənaət etmə imkanı yaratmışdır. İspaniyanın Barselona şəhərində isə xüsusi ağıllı sensorlar quraşdırılmışdır ki, bu qurğuların su sərfiyyatına nəzarət etməsi sayəsində şəhərdə ildə 42 milyon avro qənaət edilir (http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf ).

Ağıllı şəhər modelinin tətbiqi olduqca böyük maliyyə xərcləri tələb etdiyindən bu sahədə özəl sektorla dövlət sektorunun qarşılıqlı əməkdaşlığı mütləqdir. İnkişaf etmiş ölkələrdə ağıllı şəhər texnologiyalarının qurulmasına hər il bir milyard dollar məbləğində vəsait ayırılır. Hesablamalar göstərir ki, ağıllı şəhər layihələrinin həyata keçirilməsi zamanı investisiya yatırımlarının əsas hissəsi özəl sektor hesabına təmin edilsə də, qərarvermə prosesində dövlət nisbətən üstünlük sahibidir.

Ölkəmizdə ağıllı şəhər və ağıllı kənd konsepsiyası əsasında şəhərsalmaya Zəngilan rayonundan başlanmışdır. Üçüncü Ağalı kəndində salınan 200 evdən təşkil olunacaq kəndin enerji təminatının yalnız ekoloji cəhətdən təmiz alternativ enerji mənbələri olacağı bildirilir. Kəndin layihəsi sosial xidmətlər, istehsal, ağıllı kənd təsərrüfatı, yaşayış və alternativ enerji sahələri olmaqla beş komponenti

özündə ehtiva edir. Ağıllı şəhər konsepsiyasının tətbiqindən gözlənilən üstünlüklər bunlardır (https://aircenter.az/uploads/files/bulletin%20october%202021.pdf):

- Analitik strategiyanın yaradılması – bu faktor şəhərlərin "ağıllı" və rəqəmsal idarəedilməsinə imkan verəcək.
- Təhlükəsiz icmaların yaradılması – innovativ yeniliklərdən və texnologiyalardan kütləvi istifadə şəhərlərdə münaqişə və cinayət kimi halların qısa zamanda təyin edilməsi, aradan qaldırılması imkanlarını yaratmaqla daha təhlükəsiz yaşamı təmin edəcəkdir.
- Hökümət dairələri ilə vətəndaşlar arasında sıx əməkdaşlığın yaranmasına kömək edəcəkdir.
- Alternativ enerji mənbələrindən geniş istifadə ekoloji cəhətdən təmiz ətraf mühitin mövcudluğuna imkan verəcək.
- Yüksək inkişaf etmiş nəqliyyat infrastrukturunun və sistemlərin olması
- Rəqəmsal bərabərliyin təkmilləşdirilməsi
- Regiona xarici və yerli investisiya axınlarının stimullaşdırılması
- Əhalinin kommunal xidmətlərlə təminatında fasiləsizliyə nail olunması
- Yeni iş yerlərinin açılması ilə məşğulluğun artırılması və sair.

Ərazilərin iqtisadi yenidənqurması zamanı orada məskunlaşacaq əhalinin məşğuliyyətinin və ən zəruri istehlak mallarına ola tələbinin ödənilməsi başlıca məqsəddir. Bu nöqteyi nəzərdən yanaşıldıqda yenidənqruma prosesində kənd təsərrüfatı sahələrinin səmərəli təşkili və inkişaf istiqamətləri daha mühüm əhəmiyyət kəsb edir. Dünya praktikasında aqrar sektor üçün yararlı hesab edilən ərazilərdə əhalinin kənd təsərrüfatlı təyinatlı istehsala təşviq edilməsi üçün müəyyən məqsədli tədbirlər görülməkdədir. Müasir dövrümüzdə isə bütün digər sektorlarda olduğu kimi kənd təsərrüfatında da rəqəmsallaşma və innovasiyalaşma ön plandadır. Aqrar sektorda istehsal fəaliyyətilə məşğul olan subyektlərin dəstəklənməsi, inkişaf proqramlarının biznes mühitinin yaxşılaşdırılmasına və sahibkarlıq subyektlərinin stimullaşdırılmasına istiqmətlənməsi regionda effektiv kənd təsərrüfatı modeli formalaşdıra bilər. "Ağıllı" və innovativ texnologiyaların

tətbiqi, “müqaviləli istehsal” modelindən istifadə, bitkiçilik və heyvandarlıq sahələrində dronlardan və digər müasir texnologiyalardan istifadənin genişləndirilməsi, kənd təsərrüfatı texnikalarının endirimli qiymətlər və güzəştli şərtlərlə maliyyələşdirilməsi, lizinq xidmətlərinin təkmilləşdirilməsi dövlət tənzimlənməsi miqyasında görüləcək işlərə nümunə sayıla bilər.

Kənd təsərrüfatı istiqamətli istehsal fəaliyyət növlərinin genişləndirilməsi onların zəruri istehsal vasitələri ilə tam təminatına bağlıdır. Qarabağda məskunlaşan təsərrüfatların əkinçilik sahəsində gübrə, pestisidlər və keyfiyyətli toxumlaea çıxış imkanlarının genişləndirilməsi və aqrotexniki xidmətlərin səmərəli təşkilinə bağlı yenidənqurma və bərpa işləri, ilk növbədə, dövlət sektorunun vəsaitləri hesabına təmin edilsə də, sonrakı mərhələdə özəl sektorun bu istiqamətdə iştirak payının artırılması nəzərdə tutulur.

Azad edilmiş ərazilərdə məskulaşan kəndli-fermer təsərrüfatlarının informasiya əlçatanlığının yüksək səviyyədə təmin olunması və bölgədə informasiya-məsləhət xidmətlərinin effetkiv təşkili heyvandarlığın inkişafına töhvələr verə bilər. Modul tipli peşə təlimi sisteminin qurulmasının və informasiya-məsləhət xidmətlərinin təşkilini zəruri edən səbəblər bunlardır:

- Uzun illərdir kənd təsərrüfatından və təsərrüfatçılıq fəaliyyətindən uzaq düşmüş əhali öz torpaqlarına qayıtdığı zaman təsərrüfatçılıq texnologiyalarının dəyişməsi və digər bu kimi səbəblərdən qaynaqlanaraq effektiv təsərüfatçılıq təmin edə bilməyəcəkdir.
- İşğaldan sonrakı dövrdə qəsəbə və şəhərlərdə doğulan və bu şəraitdə yetişən yeni nəsil, ümumyyətlə, təsərrüfatçılıq təcrübəsinə sahib deyillər.
- Keçən otuz illik dövr ərzində dünya kənd təsərrüfatı istehsalında sürətli inkişaf yeni texnika və texnologiyaların istehsalata tətbiqi və istehsalda məhsuldar təsərrüfatçılıq modellərindən istifadə hesabına mümkün olmuşdur. Yerli əhali isə bu illər ərzində kənd təsərrüfatında baş verən innovativ dəyişikliklərdən xəbərsizdir və müvafiq təcrübəsi yoxdur.

## 3.2. İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində dövlətin rolu

Milli iqtisadiyyatın tənzimlənməsində Keynsçi modeli əsas alan digər ölkələrdə olduğu kimi Azərbaycanda da iqtisadi fəaliyyətin bütün istiqamətlərində dövlətin tənzimləyici, məhdudlaşdırıcı və stimullaşdırıcı müdaxiləsi yüksək qiymətləndirilir. Müstəqillik əldə edildiyi və kapitalizm iqtisadi sisteminə keçid edildiyi ilk dövrlərdən etibarən Azərbaycanda dövlətin iqtisadiyyata müdaxiləsi müasir qlobal inkişaf meyilləri, ölkəmizin dinamik və dayanıqlı inkişaf imkanları və əsas prioritetləri nəzərə alınmaqla həyata keçirilir. İstər müxtəlif istehsal sahələri üzrə, istərsə də ayrı-ayrı regionların inkişafına yönəlmiş proqramlar, tədbirlər öz müsbət nəticələrini vermişdir.

Hələ torpaqlarımızın düşmən işğalı altında olduğu zamanlarda onların azad edilməsi zamanı hansı işlərin görülməli olduğu, necə iqtisadi siyasət yürütmək lazım olduğu və sair bənzər mövzularda elm adamları, siyasi xadimlər, tədqiqatçılar araşdırmış və təkliflər irəli sürmüşdülər. 44 günlük müharibənin zəfərlə nəticələnməsi bu tədqiqatların praktik tətbiqi üçün geniş imkanlar təmin etdi. İşğaldan azad edilmiş ərazilərdə ilkin əməliyyatların, müşahidələrin və araşdırmaların aparılması məqsədilə 2020-ci ilin oktyabr ayında Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti idarəetmənin təşkili" ilə bağlı fərmanına əsasən inzibati idarəetmə vahidi kimi komendatlıqlar təşkil edilmişdir. Bu komendatlıqlar fəaliyyət müddətində Kənd Təsərrüfatı Nazirliyi ilə birgə təhlillər və araşdırmalar aparmaq və regionun mövcud vəziyyət ilə bağlı qiymətləndirmə etməklə mükəlləf idi. İşğaldan azad edilmiş ərazilərdə elmi tədqiqatların genişləndirilməsində dövlətin məqsədi buranın iqtisadi və resurs potensialının, aqrar, sənaye, istehsal və sair sahələr üzrə mövcud vəziyyətin yararlılıq səviyyəsinin düzgün qiymətləndirilməsidir. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu nəzdində "Post-konflikt ərazilərin bərpası Elmi Mərkəzi" qurulmuşdur. Mərkəzin yaradılmasında məqsəd:

- Azad olunmuş ərazilərin müharibədən əvvəlki və sonrakı vəziyyətinin müqayisəli təhlili və qiymətləndirilməsi
- Müharibədən sonrakı dövrdə ərazinin reabilitasiyası üçün ümumi-metodoloji prinsiplərin müəyyən edilməsi
- Əhalinin azad olunmuş ərazilərə repartriasiyasının təşkili
- Nəqliyyat infrastrukturunun, sosial obyektlərin, telekommunikasiyaların, mülki idarəetmə üzrə iş infrastrukturunun təşkili
- Post-konflikt ərazilərdə su və qaz təchizatının, yaşayış fondunun və digər həyat təminat sistemlərinin yenidən təşkili
- Beynəlxalq maliyyə institutları və alternativ maliyyə sektorları ilə əməkdaşlıq imkanlarının təhlili və qiymətləndirilməsi
- Azad olunmuş ərazilərdə iqtisadi fəaliyyət formaları üzrə müqayisəli üstünlüklərin təyin edilməsi
- Reabilitasiya dövründə yarana biləcək daxili və xarici risklərin effektiv idarəedilməsinin təşkili üçün tədbirlərin görülməsi və sairdir.

Ərazinin yenidənqurmasında maliyyə ehtiyyatlarının yetərliliyi vacib faktorlardan biridir. Bu məqsədlə ötən ilin dövlət büdcəsindən Qarabağda bərpa və yenidənqurma işlərinin aparılması üçün 2,2 milyard manat vəsait ayrılmışdır, həmçinin “Qarabağın Dirçəliş Fondu” təsis edilmişdir. Fondun yaradılması Prezidentin 4 yanvar 2021-ci ildə imzalanmış müvafiq fərmanına əsaslanmaqla dayanıqlı məskunlaşmanın təmini, işğaldan azad olunmuş ərazilərdə layiqli həyat şəraitinin yaradılması, abadlıq və quruculuq işlərinin aparılması, rifahın davamlılığının dəstəklənməsi məqsədlərini güdür. Regionda iqtisadi fəaliyyətin yenidənqurmasına dövlət sektoru ilə yanaşı özəl bölmənin də rolu böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən hər iki sektorun yüksək əməkdaşlığına nail olmaq labüddür. Qarabağın Dirçəliş Fondu regionun ölkə iqtisadiyyatına adaptasiyası prosesində özəl-dövlət əməkdaşlığının təmini istiqamətində mühüm rola malikdir. Eyni zamanda onun fəaliyyəti daxili və xarici maliyyə axınlarının regiona yönləndirilməsini də təşviq edir.

Ölkə başçısının MDB ölkələrinin dövlət başçılarının Şurasının iclasında digər ölkələrə müraciəti və Qarabağın yenidənqurmasında iştirak etməyə dəvət etməsi daxili və xarici investisiyalardan istifadənin əhəmiyyətini aydın ifadə edir. Nəticədə, ilk olaraq, Türkiyə Cumhuriyyətinin, ardınca İtaliyanın bir sıra şirkətləri ilə müqavilələr bağlanmış və əməkdaşlıq əlaqələri qurulmuşdur. İtaliyaya məxsus "Ansaldo Energia" şirkəti "Azərenerji" ASC ilə təchizat müqaviləsi bağlamış və energetika infrastrukturunun yaradılmasında birgə fəaliyyətə başlamışdır. Müqaviləyə əsasən "Ansaldo Energia" şirkəti Kəlbəcər, Füzuli, Qubadlı və Ağdam rayonlarında yaradılacaq yarımstansiyaların zəruri avadanlıqlarla təchizatını öz üzərinə götürmüşdür.

Müharibənin fəsadlarının aradan qaldırılması və ərazinin minalardan təmizlənməsi istiqamətində işlərin görülməsi məqsədilə Böyük Britaniya və Macarıstan ilə əməkdaşlıq ediləcəkdir. Belə ki, Macarıstana məxsus "EximBank" Qarabağda yenidənqurma və bərpa işlərində iştirak etmək istəyən macar şirkətlərə 100 mlyn dollar məbləğində kredit imkanı yaratmışdır. Həmçinin Macarıstan Respublikası ölkəmizə 25 min avro dəyərində qrant da təklif etmişdir (https://ereforms.gov.az /az/ ekspert-yazilari/ zengezur- dehlizinde- region-olkelerinin-de-maragi yuksekdir-59).

Azərbaycanın İnnovasiyalar Agentliyi ilə Türkiyənin GOSB texnoparkı arasında müqavilə imzalanmışdır. Bildirim ki, bu texnopark 100-dən çox texnologiya şirkətinin fəaliyyətinə dəstək vermişdir. Müqavilə əsasında tərtib edilən memorandumda iki mərkəzin birgə fəaliyyəti hesabına işğaldan azad edilmiş ərazilərdə Yüksək Texnologiyalar Parkının yaradılması planlaşdırılır. Yaradılacaq Texnologiyalar Parkında innovativ istehsal texnologiyalarının istehsalı və "hard" və "soft" elmi-tədqiqat işlərinin aparılması nəzərdə tutulur.

Torpaqlarımızın işğaldan azad olunması nəticəsində Naxçıvan MR-nın mühasirədən çıxarılmasını tarixi nailiyyət hesab etmək olar. Bu quru dəhlizinin açılması həm iqtisadi, siyasi həm də nəqliyyat nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. Türkiyə və onun üzərindən Avropa ölkələrinə quru nəqliyyatı ilə və daha az maliyyə xərcləri hesabına məhsul ixracına imkan verən bu dəhliz,

eyni zamanda Naxçıvanda istehsal edilən məhsulların yerli bazarda realizasiya imkanlarını da genişləndirəcək. Azərbaycan üzərindən həyata keçirilən beynəlxalq əhəmiyyətli yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artacağı da istisna edilmir.

İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasına orada əhalinin məskunlaşması məsələsinin də mühüm təsiri var. 2021-ci il fevralın 2-də Azərbaycan Respublikasının Prezidentinin imzaladığı müvafiq sərəncamla "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təstiq edilmişdir. Təyin edilən müddət ərzində milli iqtisadiyyatın qarşısında beş əsas prioritet durmaqdadır. Bunlardan biri də öz doğma yurd-yuvalarından ayrı düşən əhalinin Böyük Qayıdışının təmin edilməsidir. Əhalinin azad edilmiş ərazilərdə yenidən məskunlaşması dayanıqlı xarakter daşımalı və regionun ölkə iqtisadiyyatına reinteqrasiyasında müsbət effektivliyi təmin etməlidir. İşğaldan əvvəlki insanlar bu ərazilərdə necə təhlükəsiz yaşayırdılarsa, post-konflikt dövründə də məskunlaşan əhalinin tam təhlükəsiz və müasir yaşam prinsiplərinə cavab verən komfortlu yaşamı təmin edilməlidir. Sərəncamda dördüncü prioritet kimi ifadə olunan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" iki başlıca istiqamətə sahibdir: əhalinin dayanıqlı məskunlaşması və regionun ümumi iqtisadi fəaliyyətə reinteqrasiyası. Yerli əhalinin bu torpaqlarda dayanıqlı məskunlaşmasını təmin etmək üçün ərazidə müasir sosial infrastrukturlar qurulmalı, layiqli yaşam şəraiti yaradılmalı, müasir xidmətlərə əlçatanlıq təmin edilməli və rahat həyat tərzi formalaşdırılmalıdır. Əhalinin region üzrə məskunlaşma səviyyəsi ərazinin mövcud iqtisadi potensialından maksimum səmərəli istifadəyə imkan verəcəkdir.
İşğaldan azad edilmiş ərazilərin ilkin təhlili və qiymətləndirilməsindən sonra İqtisadiyyat Nazirliyi tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illərdə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" layihəsi işlənib hazırlanmışdır. Layihənin hazırlanmasında başlıca məqsəd regionun ölkə iqtisadiyyatına adaptasiyası, reinteqrasiyası, bərpa və yenidənqurma işlərinin planlanması, tarazlı və dayanıqlı inkişaf üçün əlverişli iqtisadi mühit yaratmaqdır. Azad olunmuş ərazilərin mövcud iqtisadi potensialının

düzgün qiymətləndirilməsilə yanaşı, istehsalda müqayisəli üstünlüyü təmin edən fəaliyyət növlərinin təyin edilməsi də olduqca mühümdür.

Post-konflikt dövründə ərazilərin bərpası və yenidənqurmasında dövlət-özəl əməkdaşlığının rolu mühüm əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq subyektlərinin maliyyə ehtiyyatlarına çıxışının təmin edilməsi və onların bərpa və yenidənqurma işlərində iştirakının stimullaşdırılması qısa zamanda effektiv nəticəni təmin edə bilər. Qarabağın yenidənqurmasında sahibkarlıq fəaliyyətinin roulunun qiymətləndirilməsi, biznes subyektlərindən gələn təkliflərin və layihələrin təhlili, onların azad olunmuş ərazilərin mövcud potensialı ilə bağlı məlumatlandırılması, müraciətlərin qəbulu və digər müvafiq əməliyyatlar Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən təmin edilir. Bu qurum İqtisadiyyat Nazirliyinin nəznində faliyyət göstərir. Yerli və ya xarici biznes subyektləri tərəfindən agentliyə daxil olan layihələr qiymətləndirilir, onların prioritetliyi və ölkəmizin iqtisadi məqsədlərinə uyğunluğu müəyyən edilir və müvafiq layihə və tövsiyyələr informasiya bazasına qəbul edilir.

Qarabağın ən perspektivli iqtisadi fəaliyyət növlərindən hesab edilən turizm sektorunun inkişafı üzrə dövlət səviyyəsində layihələrin və inkişaf proqramları hazırlanmışdır. Regionda turizm iqtisadiyyatının qurulması istiqamətində görülən işlərin məsuliyyəti Dövlət Turizm Agentliyinin üzərinə düşür. İşğaldan azad olunmuş ırazilərin turizm potensialının qiymətləndirilməsi tematik mövzular, rekreasiya və turizm zonaları və nəqliyyat dəhlizləri üzrə aparılır. Turizm məhsullaırndan istifadənin genişləndirilməsi və inkişaf etdirilməsini nəzərdə tutaraq “Yolumuz Qarabağa” nəqliyyat konsepsiyası işlənib hazırlanmışdır. Konsepsiya daxilində “Füzuli-Xocavənd” və  “Yolumuz Ağdama” turlarının təşkil layihələri tərtib edilmişdir. Ötən ilin iyun və may aylarında İstanbul və Dubay şəhərlərində keçirilən beunəlxalq səviyyəli turizm sərgisində Qarabağın turizm potensialı da layiqincə təbliğ edilmişdir. Hazırda “milyon ürək, bir bağ” adlı turizm brendinin yaradılması üzərində işlər görülür. Regionun turizm imkanlarından

maksimum səmərəli istifadə edilməsi Qarabağın turistik imkanlarının dünya miqyasında təbliğatına və reklamına birbaşa bağlıdır.

Qarabağın işğaldan azad edilməsi ölkəmizin dünya bazarına çıxış imkanlarını genişləndirməklə yanaşı ümumilikdə materik üzrə yüklərin daşınmasına alternativ yol da təmin edə bilər. Bildiyimiz kimi, Avrasiya materiki üzrə Çindən və digər Asiya ölkələrindən malların və əmtəələrin Avropaya daşınması ən mühüm nəqliyyat xətləri üzərindən aparılır. Mərkəzi Asiya və digər şərq ölkələrinin mallarının daşınmasında Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti fərz ediləndən də yüksəkdir. Son illər Süveyş kanalı ilə həyata keçirilən daşımalarda bir sıra təbii fəlakətlərin yaşanması və maneələrin mövcudluğu alternativ nəqliyyat kanallarına olan ehtiyacı artırmışdır. Mərkəzi Asiya ölkələrinin xüsusilə Özbəkistan və Türkmənistan Respublikalarının Zəngəzur dəhlizinin tranzit məqsədlərlə istifadəyə olduqca böyük maraqları var. Qarabağın iqtisadi əhəmiyyətliliyini daha da artıran məsələ regionun Aşqabad müqaviləsi ölkələri arasında yükdaşımalar üçün tranzit xarakter daşımasıdır. Qeyd edək ki, bu müqavilə Oman, Türkmənistan, Pakistan, Özbəkistan, Hindistan, Qazaxıstan və İran ölkələri arasında regionda birgə fəaliyyətin təmini və nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi məqsədilə imzalanıb (https:// ereforms. gov.az/az/ekspert-yazilari/zengezur- dehlizinde- region- olkelerinin- de-maragi yuksekdir-59).

Regional inkişafın təmin edilməsində dövlət tənzimlənməsinin əhəmiyyətli rolu ABŞ, Çin, Qazaxıstan, Rusiya və Yaponiya kimi ölkələrin təcrübəsində də aydın müşahidə edilir. Qloballaşan dünyamızda iqtisadiyyata dövlət müdaxiləsinin və regional inkişafda iqtisadi siyasətin tətbiqi istiqamətlərində müasir paradiqmalardan istifadə edilir. Ənənəvi paradiqmada başlıca problem məşğulluq, bazar infrastrukturu, gəlirlər üzrə regional fərqlər əsas hesab edilirdi. Müasir paradiqma isə dörd əsas istiqaməti özündə birləşdirir:

1. Regionların mövcud potensialından maksimum səmərəli istifadənin təmin edilməsi
2. Yaşıl iqtisadiyyatın formalaşması
3. İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi

4. İqtisadiyyatda innovativ yanaşmaların tətbiqi

2019-2023-cü illəri əhatə edən Regionların İqtisadi İnkişaf Proqramı çərçivəsində nəzərdə tutulan layihələr, görüləcək işlər torpaqlarımızın azad edilməsi ilə həmin regionların iqtisadi inkişafını da öz hədəfləri arasına daxil etmişdir. Dövlət Proqramının qarşısına qoyulan vəzifələr işğaldan azad edilmiş regionların ölkə iqtisadiyyatına adaptasiyasını sürətləndirəcək. Proqramın başlıca vəzifələrinə regionlar üzrə innovasiya və investisiya fəallığının artırılması, innovativ tətbiqlərin genişləndirilməsi hesabına iqtisadi potensialın gücləndirilməsi, iqtisadiyyatın diversifikasiyasının genişləndirilməsi, kiçik və orta biznesin maliyyə dayanıqlılığının gücləndirilməsi, sosial xidmətlərin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması, regionlarda alternativ enerji mənbələrindən istifadənin təşviq edilməsi, kənd yerlərində nəqliyyat və yol infrastrukturunun təkmilləşdirilməsi, regionlarda müasir texnologiyalar əsasında fəaliyyət göstərən xidmət və istehsal müəssisələrinin yaradılmasının dəstəklənməsi və sair aiddir. Bütün bu istiqamətlər üzrə görülən işlər ayrı-ayrı regionların, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yaradılan yeni iqtisadi rayonların iqtisadi potensialından səmərəli istifadəyə və dayanıqlı inkişafın təmin edilməsinə imkan verəcəkdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

"Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin iqtisadi potensialı və onun ölkə iqtisadiyyatının inkişafında gözlənilən rolu" mövzusunda aparılan tədqiqat zamanı həmin ərazilərin mövcud iqtisadi potensialı qiymətləndirilmiş, işğaldan əvvəlki dövrlə müqayisəli təhlillər aparılaraq regionun ölkə iqtisadiyyatı üçün əhəmiyyətliliyi araşdırılmışdır. Mövzunun tədqiqi zamanı dünya praktikasında regional inkişaf və yenidənqurma istiqamətində mövcud nümunələr təhlil edildiyi üçün bu nümunələrin müsbət nəticələrinin azad olunmuş ərazilərin bərpa və yenidənqurmasında tətbiq imkanlarını təyin etmək və müvafiq təkliflər irəli sürmək mümkündür.

Mövzunun tədqiqi onu deməyə əsas verir ki, regionun güclü və texniki şərtlər gözlənilmədən istismar edilməsi, baza xarakterli infrastrukturların belə olmaması və ya dağıdılması ilə burada əsaslı yenidənqurma və bərpa işlərinə ehtiyac var. Bu istiqamətdə görüləcək işlərin böyük məbləğlərlə maliyyə resursları tələb etdiyi də məlumdur. Lakin regionun mövcud iqtisadi potensialının ilkin qiymətləndirməsindən aydın olur ki, müasir iqtisadi inkişaf meyilləri əsas alınaraq Qarabağın iqtisadi restrukturuzasiyası təkcə milli iqtisadiyyatın deyil, bütünlükdə regionun iqtisadi inkişafına təkan verəcəkdir. İstər regionlar arası ticarət və logistika xidmətlərinin genişləndirilməsində, istərsə də Asiya və Avropanı birləşdirəcək alternativ nəqliyyat xəttinin yaradılmasında işğaldan azad edilmiş ərazilərdə iqtisadi yenidənqurmanın əhəmiyyəti olduqca böyükdür.

Müasir paradiqmaların və inkişaf trendlərinin izlənilməsi və yenidənqurma zamanı bu istiqamətlərin əsas alınması Qarabağın beynəlxalq standartlara cavab verən iqtisadi məkana çevrilməsinə imkan verə bilər.

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı, sənaye, turizm, tikinti və digər iqtisadi fəaliyyət növlərinin inkişafı üçün yetərli resurs bazasının və əlverişli coğrafi mühitin olması buranın investisiya cəlbediciliyini artırır. Lakin əraziyə kapital axınının təşviq edilməsi üçün beynəlxaq səviyyədə düzgün və effektiv marketinq əməliyyatlarının aparılması və sahibkarlıq subyektlərinin fəaliyyətinin təşviqi məqsədilə əlverişli biznes mühitinin yaradılması mütləqdir. Marketinq və

reklam işinin təşkili regionun iqtisadi fəaliyyət növləri üzrə mövcud imkanlarının beynəlxalq arenada tanıdılmasında mühüm rola malikdir. Xarici investorların mövcud və inkişaf perspektivi yüksək olan fəaliyyət növləri üzrə maarifləndirilməsi, regionun dünya səviyyəsində tanıdılması üçün sərgilərdə və sair iştirak və təbliğat işləri aparılması məqsədyğundur.

Hazırda dünyanın yüksək inkişaf etmiş ölkələrində yüksək gəlirliliyi və əhalinin məşğulluğunu təmin edən yeni turizm fəaliyyət növləri yaranmışdır. Ölkəmizdə bu sektor üzrə inkişaf imkanları böyük olsa da, fəaliyyətin səmərəli təşkil edilməməsi istənilən nəticəni əldə etməyə imkan vermir. Qarabağın beynəlxalq səviyyədə turizm brendinə çevrilməsi ölkəyə kapital axınını təmin etməklə yanaşı, digər istehsal sektorlarına da öz müsbət təsirini göstərəcəkdir.

Böyük Qayıdış layihəsi üzrə yerli əhalinin yenidən və davamlı məskunlaşması təmin edilərkən regionda məşğulluq probleminin həlli də mühüm əhəmiyyət kəsb edir. Yerli əhalinin ənənəvi təsərrüfatçılıq bacarıqlarını və regionun aqrar sektor üçün yararlılığını nəzərə alaraq innovativ təsərrüfatçılıq metodlarını əsas alan kənd tsərrüfatının inkişaf etdirilməsi daxili bazarın aqrar məhsullara olan tələbatının yerli istehsal hesabına ödənilməsini təmin etməklə yanaşı, ölkənin ixrac məhsullarının diversifikasiyasına da imkan verəcəkdir.

İşğaldan azad edilmiş ərazilərdə "Smart village and city" modellərinin yaradılması əhalinin layiqli həyat səviyyəsini təmin etməklə yanaşı, kənd turizmi, aqroturizm kimi yeni fəaliyyət istiqamətlərinin inkişafına da təkan verəcəkdir. Regionun bitki və heyvanlarla zəngin meşə örtüyü və müxtəlif istiqmətlərdə kənd təsərrüfatının inkişafına imkan verən iqlimi ənənəvi təsərrüfatçılıqla yanaşı, dərman istehsalı, tibbi turizm, orqanik kənd təsərrüfatı kimi yeni fəaliyyət növlərini də inkişaf etdirəcəkdir. Ölkəmizdə son on ildə orqanik kənd təsərrüfatçılığına başlanılsa da mövcud potensialından maksimum istifadəyə nail olunmamışdır. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin bərpası bu sektoru da canlandıracaqdır. Xüsusilə arıçılıq və bal istehsalı sahəsində orqanik məhsulların hazırlanması və dünya bazarına çıxarılması imkanları genişdir. İstehsal edilən məhsulların dünya bazarında rəqabətədavamlılığı bu məhsulların beynəlxalq

standartlara cavab verməsi, müvafiq sertifikatları əldə etməsi və brend kimi formalaşması kimi məsələlərdən asılıdır. Hesab edirəm ki, arıçılıq məhsulları üzrə "made in Azerbaijan" brendinin yaradılması ölkəmizin yeni xarici bazarlara çıxışını da təmin edə bilər.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi yenidənqurmanın təşkil səviyyəsi dövlət-özəl sektor arasında qurulan əməkdaşlıq münasibətlərindən birbaşa asılıdır. Regionun biznes mühitinin yaxşılaşdırılması, iqtisadi subyektlərin maliyyə əlçatanlılığının təmini, hüquqi proseduraların sadələşdirilməsi, fiskal siyasətin yumşaldılması kimi tədbirlər özəl sektorun regionda fəaliyyətə olan marağını stimullaşdıra bilər. Həmçinin xarici investorların bu prosedurlara cəlb edilməsi üçün ölkə iqtisadiyyatında islam maliyyə institutlarının yaradılması alternativ maliyyə resuslarına çıxış imkanı yaradacaqdır. Bu yolla Körfəz ölkələrinin, habelə Malayziya və İran kimi ölkələrin investisiya yatırımları təşviq edilə bilər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi – Prezident Kitabxanası (2021). Azərbaycan – Ermənistan münaqişəsi; https://files.preslib.az/projects/azerbaijan/gl8.pdf
2. "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (19 aprel 2021).
3. Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan xalqına müraciətləri (27.09.2020-ci il tarixindən etibarən); https://aznotary.az
4. Atakişiyev M.C. "Regional inkişafa dövlət dəstəyinin rolu iqtisadiyyatın dövlət tənzimlənməsi", Maliyyə və uçot: jurnal, 2013 № 5.- səh. 50-55.
5. Abbasova Z.E. "Aqrar sahədə innovativ idarəetmə: Effektiv strateji planlaşdırma yanaşması", Kənd Təsərrüfatının İqtisadiyyatı: jurnal, 2021 № 3.- səh. 43-48.
6. Fikrətzadə F.F., Hacıyeva S.İ. "İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması", Kənd Təsərrüfatının İqtisadiyyatı: jurnal, 2020 № 4.- səh. 23-37.
7. Hüseynova İ.M. "Kənd təsərrüfatının dayanıqlı inkişafında elm, texnologiya və innovasiyaların rolu", Kənd Təsərrüfatının İqtisadiyyatı: jurnal, 2020 № 4.- s.17-22.
8. Musazadə Ə.Z. (2010) "Keçid dövründə iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizminin formalaşması mərhələləri", Bakı, 198 səh.
9. Rəşidov L., (09.12.2020). İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri. Bakı, "Xalq qəzeti", səh. 9.
10. Rzayev M.A. "Ağıllı kənd təsərrüfatı və innovasiya siyasətinin əsas istiqamətlər", Kənd Təsərrüfatının İqtisadiyyatı: jurnal, 2021 № 1.- səh. 21-28.

11. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A., (2016). Azərbaycan iqtisadiyyatı: Reallıqlar və perspektivlər. Bakı: Turxan NPB, 536 səh.

## Türk dilində

12. Bulut C., Aras O.N., Süleymanov E. (2009). Azerbaycan ekonomisinin 15 yılı (1991-2006), Baku, 228 sayfa.

13. Mirzəyev A., (2017). Haydar Aliyev döneminde Azerbaycanın bölgüsel dış politikası. Bakü, Azerbaycan Devlet İktisad Üniversitesi, 79 sayfa.

## İnternet resursları

1. https://www.usitc.gov/publications/332/pub4125.pdf
2. https://ereforms.gov.az/az/ekspert-yazilari/zengezur-dehlizinde-region-olkelerinin-de-maragi-yuksekdir-59
3. https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda__hesabat_dta.pdf
4. https://agroeconomics.az/az/article/30/agilli-kend-teserrufati-ve innovasiya-siyasetinin-/
5. http://elibrary.bsu.edu.az/files/books_rax/N_362.pdf
6. https://president.az/az/articles/view/50474
7. https://president.az/articles/45924
8. https://www.economy.gov.az/article/s%C9%99nayepark%C4%B1/21403
9. http://www.aera.gov.az/az/news/115/
10. https://www.stat.gov.az
11. https://mod.gov.az/az/qarabagin-tarixi-075/
12. http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf
13. http://supremecourt.gov.az/static/view/173
14. https://ereforms.gov.az/files/article/pdf/az/a2a72fc9419cfac00b0b04f03d020250.pdf
15. https://azerbaijan.un.org/az/114165-bmt-v-azrbaycan-2021-2025-ci-illr-ucun-yeni-mkdasliga-dair-crciv-sndini-imzalayib

16. https://www.mdu.edu.az/az/1307-rezhionlar-n-sosial-izhtisadi-inki-af-prozhram-azad-olunan-razil-rd-d-reala-adzazh.html
17. https://science.gov.az/az/news/open/17052
18. http://www.e-qanun.az/framework/41320
19. https://fed.az/az/qarabag/azad-edilmis-erazilerde-seherler-ve-kendler-agilli-seher-agilli-kend-konsepsiyasi-esasinda-qurulacaq-98665
20. https://fed.az/az/aqrar/azerbaycanda-agilli-kend-nece-olacaq-detallar-40732
21. http://e-qanun.az/framework/47263
22. https://mincom.gov.az/upload/files/fd3ff230964c82429ba05e61211811e.pdf
23. https://science.gov.az/az/news/open/15789
24. https://aircenter.az/uploads/files/bulletin%20october%202021.pdf

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Perspektivdə əkin sahələrinin proqnozlaşdırılan strukturu, hektarla (2020)........................................................................................................................33
**Cədvəl 2:** 1980-ci illərdə heyvanların baş sayı, min baş (2020)..................................................34
**Cədvəl 3:** Perspektiv dövrdə heyvanların baş sayı, min baş (2020)............................................35
**Cədvəl 4:** Qarabağda debiti yüksək olan mineral sular və dünyadakı analoqları (2021)........................................................................................................................41